Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 39 (8062) BAZAR, 17 fevral 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



Ön cəbhədən reportaj



# Modernləşən, qüdrətlənən Azərbaycan Ordusu

**...Ön xətdəki səngərlərdən bir qədər aralıda, atəş mövqeyindən görünməyən ərazidə yerləşən hərbi hissədəyik. Qarabağ müharibəsində şəxsi heyətinin göstərdiyi böyük şücaətə görə adını hərb tariximizin şanlı səhifəsinə yazdıran bu hərbi hissənin döyüş yolu təlatümlü olsa da, haqqında fəxrlə danışa biləcəyimiz tarixi və qəhrəmanları var.**

Bunu hərbi hissəyə daxil olarkən ilk baxışdan hiss etmək də mümkündür. Çünki burada bir vaxtlar xidmət etmiş, həmçinin Milli Qəhrəman adı və "Azərbaycan Bayrağı Ordeni" ilə təltif edilmiş igidlərin büstü var. Bu cəsur döyüşçülərin xatirələri daim ehtiramla yad edilir, hərbi hissənin qəhrəmanlıq tarixindən qürurla danışılır..

### Qəhrəmanları ilə öyünən hərbi hissə

Qarlı dağlardan endiyimizi bildikləri üçün bizi öncə bir qədər isinmək üçün qərargaha dəvət etdilər. Elə hərbi hissə ilə ilk tanışlığa da buradan başladıq. Qərargah binasında Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna diqqət və qayğısını, hərbçilərlə görüşlərini əks etdirən fotostendlər, müxtəlif hərbi kitablar və hərbi hissəyə təqdim edilən hədiyyələrdən ibarət guşə yaradılıb.

Hərbi hissə komandiri ilə görüşüb söhbətləşirik. Öncə hərbi hissənin yaranma tarixindən, müharibə zamanı keçdiyi döyüş yolundan söz açan komandir deyir ki, hərbi hissə 1993-cü ildən cəbhənin müxtəlif istiqamətlərində döyüş tapşırıqlarını yerinə yetirib. Azərbaycan torpaqlarının müdafiəsi uğrunda gedən döyüşlər zamanı 5 zabiti, 2 giziri və 60 əsgəri şəhid olub.

Ardı 2-ci səh.

*İslahatlar real nəticələr verir:* mətbəxdən yataqxanayadək, döyüş səngərindən hərbi hissəyə qədər bütün məkanlar müasirləşib, təminat yüksək səviyyədə təchiz edilib, qələbə əzmkarlığı artıb



# Həm şad, həm də çətin gündə xalqla birlikdə

**Bu gün Azərbaycan dünyanın sayılıb-seçilən ölkələri sırasında addımlayır. Ölkəmizin sosial-iqtisadi sahədə nail olduğu davamlı inkişafı bütün dünya görür, beynəlxalq qurumlar bunu dəyərləndirir, onların reytinq cədvəllərində Azərbaycanın adı ildən-ilə daha irəliyə çıxır.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan qlobal layihələrə imza atıb. Bütün bunlar Azərbaycan dövlətinin, dövlət başçısı İlham Əliyevin yeritdiyi düzgün, məqsədyönlü siyasətin, gələcəyə hesablanmış islahatların nəticəsində mümkün olur.

Prezident nailiyyətlərdən əldə edilmiş gəlirləri, maliyyə resurslarını ilk növbədə vətəndaşların rifahına yönəltməyə çalışır. "Siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır, onun maraqlarıdır, onun rifahıdır" - deyir. Bu yanaşma həm də dövlət-vətəndaş münasibətlərinin tərkib hissəsidir.

Bir sıra vacib kənd təsərrüfatı sahələrini, o cümlədən pambıqçılığı bərpa edən Prezident İlham Əliyev bununla yüzlərlə ailəyə "çörək" bəxş etdi, minlərlə insanı sevindirdi. Bunlar öz yerində. Həmin böyük addımı atan Prezidentin pambıq tarlasında zəhmətkeş qızlarla, qadınlarla səmimi söhbət etməsinin, dərd-sərlərindən, qayğılarından xəbər tutmasının da öz yeri var.



Mübaliğəsiz demək olar ki, Prezidentin xalqla çoxsaylı görüşlərinin hər biri yaddaqalandır. Bu səmimi görüşlərdə insanlarla - balaca uşaqdan ixtiyar qocayadək hamı ilə dövlət başçısının qarşılıqlı münasibətlərini əks etdirən maraqlı məqamlar uzun müddət yaddaşlardan silinmir.

2014-cü ilin payızında Prezident Gəncədə səfərdə olarkən bu şəhərin 11 yaşlı sakini Ümid dövlət başçısından soruşdu ki, mənim ad günümə gələrsinizmi? Prezident "Çalışacağam ki, gələm" dedi və vədini unutmadı.

Ardı 3-cü səh.

# Xalqın sevgisini qazanan siyasət

**Azərbaycan xalqının tarixində parlaq bir mərhələni yaşayırıq: bu XXI əsrdə Azərbaycanın yeniləşməsi, daha dəqiq desək, möcüzə kimi davam edən intibah dövrüdür! Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır. Bu illər inkişaf, quruculuq illəri kimi yaddaşlara yazılmışdır.**

Bu gün xalq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanı öz sevgisi ilə əhatə edir. Arada heç bir maneə, sədd yoxdur. İsti kəlmələrlə ifadə olunan doğmalıq, qarşılıqlı sayğı bu birliyə, vəhdətə xələl gətirmək istəyən hər kəsi öz əhatəsindən kənarda saxlayır. Belə bir sağlam mühit sadə insanları da, bu insanlara xidmət missiyasını ləyaqətlə yerinə yetirən bu iki dövlət



adamını da ruhlandırır. Bütün çətinliklər qarşısında sarsılmaz edir və indi tarixinin ən qüdrətli mərhələsində olan Azərbaycanın gücünə güc qatır.

Azərbaycanın dövlət rəhbərliyi xalqın yanındadır!

Xalqla birlikdədir!

Xalqın xidmətindədir!

### Hər görüş bir hadisəyə çevrilir

Prezident İlham Əliyevi Vətənin hər yerində məhəbbətlə qarşılayırlar. Çünki onun da insanlara apardığı sevgidir, sadəlikdir, səmimiyyətdir, vətəndaşının hər zaman əsas güvənc yeri olan dövlətin diqqət və qayğısıdır.

Ardı 3-cü səh.

## Erməni ordusunun real mənzərəsi:

# 1140 cinayət, 182 korrupsiya faktı və 2385 qanun pozuntusu

### İşğalçı ölkənin silahlı qüvvələrində anarxiya, özbaşınalıq və böyük xaos hökm sürür

**Digər sahələrlə yanaşı, hərbi müstəvidə də Ermənistanda böyük problemlərin hökm sürməsi heç kimə sirr deyil. Son vəziyyətin təhlili bu ölkənin silahlı qüvvələrində xaos halının daha da dərinləşdiyini göstərir.**

Bu xüsusda narazılıq doğuran məqamlardan biri isə orduda artan itki hallarının gizlədilməsinə cəhdlər göstərilməsidir. Bu xüsusda cari ilin ilk günündə aldığı xəsarətlərdən ölən erməni hərbi qulluqçu Edqar Qriqoryan olayı ətrafında proseslərin daha da gərginləşməsi müşahidə olunur.

Ardı 8-ci səh.



# Ölkəmiz hərbi təcavüzün nəticələrini aradan qaldırmaq əzmindədir

### Prezident İlham ƏLİYEV: "Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir"

**Heç kimə sirr deyil ki, hazırda beynəlxalq münasibətlər sistemində indiyədək görünməmiş acınacaqlı mənzərə müşahidə olunur. XXI əsr bəşər tarixinə çoxsaylı insan tələfatına gətirib çıxaran silahlı münaqişələrlə, aparıcı dövlətlər arasında münasibətlərin gərginləşməsi və beynəlxalq hüququn çat verməsi ilə daxil olmuşdur.**

Ötən yüzilliyin axırlarında sosializm sisteminin dağılması və soyuq müharibənin başa çatması, bir tərəfdən, müstəmləkəçilik əsarəti altında olan millətlərin azadlığa qovuşub milli dövlətlərini qurmasına şərait yaratmış, digər tərəfdən, güc mərkəzlərinin öz mənafeyi naminə dünyanın siyasi xəritəsini yenidən çəkməyə girişmişdir. Dünyanın gözü qarşısında insanlıq dramı yaşanır. Böyük dövlətlərin ayrı-ayrı regionları nəzarət altında saxlamaq cəhdləri faciələrə



yol açır, yüz minlərlə insan həyatla vidalaşmalı olur, milyonlarla insan yurd-yuvasından məhrum olur.

Belə bir mürəkkəb şəraitdə nəinki yenicə müstəqillik yoluna qədəm qoymuş dövlətlərin, hətta oturuşmuş dövlətlərin varlığını qoruyub saxlaması məsələsi ümdə vəzifə kimi qarşıda durur. Azərbaycan Respublikası hələ milli müstəqilliyini bərpa etməzdən əvvəl beynəlxalq hüququn ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı kimi təməl prinsiplərinin pozulması ilə qarşılaşmışdır. Güclü havadarlara bel bağlayan Ermənistanın hərbi təcavüzü nəticəsində ərazimizin 20 faizi düşmənin əlinə keçmiş, bir milyondan çox həmvətənimiz ev-eşiyindən didərgin düşmüşdür.

Prezident İlham Əliyev Real telekanalına verdiyi müsahibədə vurğuladığı kimi, tarixin hazırkı mərhələsində güc amili ön plana çıxmışdır: "Müxtəlif yerlərdə beynəlxalq hüquq kobudcasına pozulur. Əgər əvvəlki dövrlərdə bunu müəyyən formada gizlətmək istəyirdilərsə, bu gün heç buna ehtiyac da görmürlər. Bu gün dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür".

Dövlət başçısı belə bir məqamı nəzərə çarpdırdı ki, güc amili həmişə gündəlikdə olub və bundan sonra da olacaq. Odur ki, həm dövlət, həm də hər bir vətəndaş mövcud reallığı nəzərə alaraq ölkənin ərazi bütövlüyünün bərpası naminə əlindən gələni etməlidir.

Ardı 3-cü səh.

# S.D.Novruzovun "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Siyavuş Dünyamalı oğlu Novruzov "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 fevral 2019-cu il*

# "Azəri" yenə də neft verir və gəlir gətirir

### Bu yataqdan hasilata 14 il əvvəl başlanıb



**14 il əvvəl Xəzərin Azərbaycan sektorundakı "Azəri" yatağından ilk neft hasil olundu. "Azəri"nin işlənməsi "Əsrin müqaviləsi" adını almış "Azəri-Çıraq-Günəşli" (AÇG) layihəsinin mühüm mərhələsidir.**

Odur ki, bu yataqdan neftin alınması "Əsrin müqaviləsi"nin kulminasiya nöqtəsi sayılır. "Azəri" təkcə Xəzərdə deyil, bütün dünyada istismar edilməkdə olan ən böyük neft yataqlarından biridir.

Ardı 6-cı səh.

◆ Ön cəbhədən reportaj







*Əvvəli 1-ci səh.*

İki zabitinin Milli Qəhrəman, bir zabitinin "Azərbaycan Bayrağı Orden"i ilə təltif edilməsi hərbi hissənin şanlı döyüş yolu keçdiyini bir daha təsdiqləyir.

Son illər Azərbaycanın hərbi büdcəsinin artması ilə əlaqədar Silahlı Qüvvələrin silah-sursat və hərbi texnika ilə təchizatında da əsaslı dəyişikliklərin baş verdiyini söyləyən komandirin sözlərinə görə, düşmənlə üz-üzə dayanan hərbi hissələrimiz ən müasir atıcı silahlarla, hərbi texnika və istehkam qurğuları ilə təmin olunublar: "Bütün bunlar əlbəttə ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğının nəticəsidir. Həm Ali Baş Komandanın, həm müdafiə naziri Zakir Həsənovun Azərbaycanın keşiyində dayanan əsgər və zabitlərlə mütəmadi olaraq görüşmələri, onların qayğısı ilə maraqlanmaları hərbçilərimizdə döyüş, vətənpərvərlik ruhunu daha da artırır. İndi nəinki arxa cəbhədə, hətta düşmənlə üzbəüz təmas xəttində yerləşən hərbi hissələrdə özünü göstərən hərbi quruculuq prosesi yalnız böyük qürur və sevinc hissi doğurur. Elə bunun səbəbidir ki, bu gün Azərbaycan Ordusu dünyanın ən güclü 50 ordusu sırasındadır. İnkişaf etmiş sənaye nəticəsində müasir silahlar artıq ölkəmizdə istehsal olunur, hətta xaricə də satılır. İyunun 26-da Azərbaycan Ordusunun 100 illik yubileyi münasibətilə keçirilən hərbi paradda dünya bir daha ölkəmizin qüdrətinin şahidi oldu. İşğalçı Ermənistan isə bundan qorxuya düşdü.

Bununla yanaşı, hər il dövlət büdcəsindən müdafiə və təhlükəsizlik xərclərinə ayrılan vəsait artırılır. Məsələn, bu il hərbi sahəyə ötən ildəkindən 4,6 faiz artıq vəsait ayrılıb. Təbii ki, torpaqları işğal altında olan bir ölkə üçün bu sahəyə daha artıq vəsaitin ayrılması başadüşüləndir. Əminliklə deyirəm ki, bütün bunlardan güc alan Azərbaycan hərbçisi vətənpərvərliyi, milli ruhu ən yüksək səviyyədə nümayiş etdirir".

# Modernləşən, qüdrətlənən Azərbaycan Ordusu

***İslahatlar real nəticələr verir:*** mətbəxdən yataqxanayadək, döyüş səngərindən hərbi hissəyə qədər bütün məkanlar müasirləşib, təminat yüksək səviyyədə təchiz edilib, qələbə əzmkarlığı artıb







...Bu gün naharda hərbçilər üçün 2 cür yemək bişirilib. Quru yeməklərdən qarabaşaq qovrulmuş ətlə, sulu yeməklərdən isə küftə hazırlanıb. Bununla yanaşı nahar qida rasionunda çuğundur salatı, soyulmuş soğan və sarımsaq, bir nəfər üçün nəzərdə tutulmuş şirə və alma nəzərdə tutulub.

Əsgərlər həftə ərzində səhər, nahar və şam yeməklərində təxminən 26-28 çeşiddə qida qəbul edirlər. Yağ, pendir, cem və şirin çay istisnasız olaraq günün istənilən vaxtında qəbul edilən qidalar sırasındadır.

Səhərlər düyü, vermişel sıyığı, yumurta, südlü düyü, südlü vermişel, çəkilmiş mal əti ilə qarabaşaq verilir.

Nahar və şam yeməkləri də 2 çeşiddə olur. Yəni naharda həm sulu, həm də quru yeməklər verilir. Belə ki, həftənin müxtəlif günlərində şorbalardan noxud, göy noxud, mərci, düyü və tərəvəz şorbaları, borş, küftə bişirilir. Bu sulu yeməklərlə bərabər naharda üzərində ətlə qarabaşaq, qovrulmuş makaron, düyü, vermişel də olur.

Şam yeməyində isə sulu yeməklə yanaşı kartof püresi ilə balıq konservi, qızarmış balıq, ətlə qarabaşaq, bulğur və s. yeməklər verilir. Mövsümə uyğun salatlar, şirələr, soyulmuş-doğranmış soğan və sarımsaq da qida rasionuna daxildir.







## Qar "skuter"ləri, əsgər məktubları

Komandirlə söhbətləşdikdən sonra bayıra çıxıb hərbi hissə ilə ümumi tanışlığa başladıq. Gözümüzə ilk toxunan qar "skuter"ləri (qar maşını) oldu, özü də təp-təzə. Hələ sellofanı açılmamış skuterlər hərbi hissəyə yenicə gətirilib. Hərbçilərimizin ixtiyarına verilən bu qar maşınları yüksək dağlıq ərazilərdə rahat hərəkət etmək üçündür. Müdafiə Nazirliyi tərəfindən bütün yüksəkliklərdə yerləşən hərbi hissələr bu "skuter"lərlə təmin edilib.

Şəxsi heyətin böyük bir hissəsi döyüş növbəsindədir. Qalan əsgərlər isə Gəncə Qarnizonu Zabitlər Evinin "Vətən Uğrunda" Səyyar Təşviqat Dəstəsinin vətənpərvərlik mövzusunda hazırladığı videoçarxları izləyir, əsgərlərə yazılan məktubları oxuyurlar.

İçəri daxil olub ümumi vəziyyətlə tanış oluruq. Çox maraqlı mənzərə ilə rastlaşırıq: əsgərlər tam sərbəst şəkildə hərəkət edir, məktub yazır, filmə baxırlar. Məktublar əsasən orta məktəb şagirdləri tərəfindən yazılır. Hərbi qulluqçular da həmin məktublara cavab hazırlayırlar.

Yeddi aydır burada hərbi xidmət keçən əsgər Onur Seyidov ailəsinə məktub yazır. Deyir ki, xidmətə başladığı gündən telefon əlaqəsi saxlasa da, çox sözü çatdıra bilmir. Amma məktub vasitəsi ilə demək istədiklərinin hamısını yazır. Ona görə də bu fürsəti qaçırmaq istəmir.

*Əvvəli qəzetin 31 yanvar tarixli sayında*

Əsgər İlkin Aslanov da ailə üzvləri üçün darıxıb. Deyir ki, ön xətdə xidmət etdikləri üçün telefonla çox ünsiyyət qurmaq təhlükəlidir. Düşmən hiyləgərdir, hər an rabitəni izləyir və buna görə də məktublaşmaq ən doğru yoldur. Səyyar Təşviqat Dəstəsinin təşkil etdiyi bu xoşməramlı aksiyalar bütün əsgərlər kimi onu da sevindirir: "Onlar məktublarımızı ailəmizə çatdırırlar və bizə cavab gətirirlər. Hətta yazdığımız məktubların kim tərəfindən oxunduğunu da videolentə alırlar və biz burda böyük ekranda həmin duyğulu anlara tamaşa edirik. Kövrələn də olur, göz yaşını saxlaya bilməyən də. Təsəvvür edin ki, ailə üzvlərin bir masa arxasında əyləşib. Ya atan, ya da anan yazdığın məktubu ucadan oxuyur və getdikcə səsi kövrəkləşir, özünü saxlaya bilmir, məktubu bağrına basıb ağlamağa başlayır. Əlbəttə ki, bunlar sevinc göz yaşlarıdır. Bu mənzərəyə soyuqqanlı tamaşa etmək də mümkünsüzdür".

Əsgərlər deyirlər ki, Səyyar Təşviqat Dəstəsinin bu xeyirxah missiyası ön xətdə xidmət edən hərbi qulluqçuların ruh yüksəkliyini, döyüş əzmini daha da artırır. Hər əsgərin ailəsindən, ailəsinin də övladdan mütəmadi olaraq xəbər alması tərəflər üçün böyük stimuldur. Ona görə də Vətənə borclarını sevə-sevə yerinə yetirirlər.

## Əsgər yataqxanasında səliqə-sahman, ciddi nizam-intizam var

Klubdan ayrılıb əsgər yataqxanasına baş çəkirik. Bölmə komandiri, zabit Musa İmanov deyir ki, hərbi hissədə nizam-intizama, səliqə-sahmana hər zaman diqqət yetirilir.

Həqiqətən də, əsgər kazarmalarındakı səliqə-sahmana, təmizliyə söz ola bilməz. Burada hərbi qulluqçuların istirahəti üçün hər cür şərait var. Əsgərlərin şəxsi bacarığının üzə çıxarılması məqsədilə yaradılan guşələrdə onların yaradıcılıq nümunələri, divar qəzeti, Milli qəhrəmanların fotoları, hərbi qaydalar haqqında stendlər düzəldilib.

Kazarma müasir istilik sistemi, əsgər çarpayıları isə əvvəlkilərdən fərqli olaraq, daha yüksək keyfiyyətli döşəklərlə və yastıqla təchiz olunub. Eyni zamanda hərbçilər televiziya vasitəsilə həm informasiyalar alırlar, həm də maraqlarında olan verilişləri izləyirlər.

Burada həmçinin ideoloji otaq, idman zalı, tibb məntəqəsi, hamam kompleksi mövcuddur. İdeoloji otaqda dövlət rəmzləri, faciələrimizi əks etdirən plakatlar, hərbi hissənin döyüş yolu, Milli qəhrəmanlar haqqında məlumatlar mövcuddur. Əsgərlərə müxtəlif mövzularda dərslər də keçilir.

## Zəngin qida rasionu, gündə 2 dəfə ət yeməyi

Nahara az qalır, yeməkxanada hazırlıq işləri görülür. Bir azdan döyüş tapşırığını yerinə yetirən bölmələrin əsgərləri növbəli sistemlə nahara gələcəklər. Bu səbəbdən də əvvəlcədən içəri daxil olub hərbçilərin qida rasionu ilə maraqlanırıq.

Ərazi ucqar dağlıq yer olduğu üçün burada mülki işçilər çalışmır. Yeməkləri hərbçilər hazırlayır. Aşpazlar növbəli sistemlə yemək bişirir. Anbarda isə lazımi qədər ərzaq var. Hər bir qablaşdırılmış məhsulun üzərində "satışı qadağandır", "Əsgər payı" yazılıb.

Yeməkxana rəisi, gizir Rövşən Osmanov deyir ki, bu gün naharda hərbçilər üçün 2 cür yemək bişirilib. Quru yeməklərdən qarabaşaq qovrulmuş ətlə, sulu yeməklərdən isə küftə hazırlanıb. Bununla yanaşı nahar qida rasionunda çuğundur salatı, soyulmuş soğan və sarımsaq, bir nəfər üçün nəzərdə tutulmuş şirə və alma nəzərdə tutulub.

Şəxsi heyətin həftəlik qida rasionu çox zəngindir. Əsgərlər həftə ərzində səhər, nahar və şam yeməklərində təxminən 26-28 çeşiddə qida qəbul edirlər. Yağ, pendir, cem və şirin çay istisnasız olaraq günün istənilən vaxtında qəbul edilən qidalar sırasındadır. Bununla yanaşı həftənin ayrı-ayrı günlərində səhərlər düyü, vermişel sıyığı, yumurta, südlü düyü, südlü vermişel, çəkilmiş mal əti ilə qarabaşaq verilir.

Nahar və şam yeməkləri də 2 çeşiddə olur. Yəni naharda həm sulu, həm də quru yeməklər verilir. Belə ki, həftənin müxtəlif günlərində sulu yeməklərdən noxud, göy noxud şorbası, mərci şorbası, borş, küftə, düyü və tərəvəz şorbası bişirilir. Bu sulu yeməklərlə bərabər naharda üzərində ətlə qarabaşaq, qovrulmuş makaron, düyü, vermişel də olur. Şam yeməyində isə sulu yeməklə yanaşı kartof püresi ilə balıq konservi, qızarmış balıq, ətlə qarabaşaq, bulğur və. s. yeməklər verilir. Mövsümə uyğun salatlar, şirələr, soyulmuş-doğranmış soğan və sarımsaq da qida rasionuna daxildir.

## Dadlı-tamlı əsgər yeməyi

Artıq vaxtdır. Masaların üzərinə çörəklər, salatlar, şirələr və yemək qazanları düzülüb. Burada əsgərlər içəri daxil olub birbaşa masalarda əyləşib yeməklərini qazandan özləri çəkirlər. Bütün yeyiləcək qidalar yeməkxana işçiləri tərəfindən masanın üstünə düzülür. Əsgərlər içəri daxil olub oturduqdan sonra hər masadan bir nəfər ayağa qalxıb digərlərinə istəklərinə uyğun olaraq xörək çəkir.

Bir qədər sonra şəxsi heyət növbə ilə yeməkxanaya daxil olur. Biz də hərbçilərimizlə bərabər əyləşib əsgər yeməyinin dadına baxırıq. Həqiqətən də çox dadlı küftə bişirilib. Evdə və ya hansısa restoranda bişirilən yeməkdən qətiyyən fərqlənmir.

Naharını bitirən bir neçə əsgərlə söhbət edirik. Əsgər Xəyyam Osmanov deyir ki, hərbi xidmətə başlayan hər bir gənc ilk aylarda müəyyən çətinlik çəksə də, bir qədər sonra hər şey qaydasına düşür. Əvvəllər gənclərin öyrəşə bilmədikləri tək məsələ yeməkxanada bişirilən xörəklər olurdu. Amma bizim dövrümüzdə belə deyil: "Hərbiyə gələndə orduda aparılan islahatlar barədə məlumatım olsa da, bəzi şeylərdən xəbərim yox idi. Fikirləşirdim ki, əsgərlikdə yeganə problemim yeməklə bağlı olacaq. Çünki 18 il ev yeməyi yeyən bir insan birdən-birə başqa mühitə düşdükdə çətinlik çəkir axı...

Ancaq tam əksinə oldu. Burada bişirilən yeməklərlə evdə yediyimiz xörəklər arasında fərq yoxdur. Yüksək səviyyədə xidmət var, yeməklərin keyfiyyətinə də söz ola bilməz. Həftə ərzində bir neçə çeşiddə yeməklər hazırlanır".

Əsgər Vüsal Nəcəfəliyev cəmi 7 aydır xidmətdədir. Ön xətdə xidmət etməsi ilə fəxr edir. Hərbi xidmətə gəlmədən öncə dostlarından Azərbaycan Ordusunun bugünkü durumu ilə bağlı xeyli məlumat alıb. Ona görə də hərbi hissəyə gələndə heç nədən qorxusu olmayıb: "Cəmi 7 aydır hərbi forma geyinməyimə baxmayaraq, mən Azərbaycan Ordusunun qüdrətini görürəm. Bu gün Azərbaycan əsgəri özünü mübariz əsgər kimi hiss edir. Səbəbi də bilirsiniz nədir? Hər cür təminat. Zabitlə əsgərin geyimində (rütbələrdən başqa), yeməyində heç bir fərq yox. Hər kəs burada Vətən üçün xidmət edir. Burada bizə elə yeməklər verilir ki, bəlkə kimlərsə heç onu mülki həyatda yeməyib. Ona görə də bizim tək borcumuz ana torpağı qorumaqdır. Biz bunu canla-başla yerinə yetiririk".

## Hər bir əsgərinin qayğısına qalan dövlət

Bütün bunlar orduya dövlət qayğısının gündən-günə artırıldığının göstəricisidir. Hər bir əsgərinin qayğısına qalan, onun döyüş ruhunu yüksəldən, maddi-texniki bazasını gündən-günə yaxşılaşdıran dövlət bütün imkanlarını bu istiqamətdə səfərbər edib.

Zabit Seymur Məmmədov deyir ki, ucqar bir ərazidə yaradılmış bu şərait şəxsi heyətin yüksək mənəvi-psixoloji ovqatda köklənməsinə, döyüş və mübarizə əzminə müsbət təsir göstərir. Hərbi hissədə nümunəvi hərbi xidmətin əsas göstəricilərindən biri də şübhəsiz ki, əsgər və zabitlərin vəzifə borclarına layiqincə yanaşmalarıdır. Məhz bu baxımdan hərbi hissədə münasibətlər sırf hərbi qanunvericilik, daxili nizamnamə üzərində qurulur. Son illər Azərbaycanın ordu quruculuğunda həyata keçirilən islahatlar əsgərlərin məişətində də öz sözünü deyir. Hazırda Vətənin keşiyində dayanan hərbçilərimiz üçün hərbi bölmələrdə ən müasir səviyyədə sosial-məişət şəraiti yaradılıb.

Cəbhə xəttində yerləşən "N" hərbi hissəsinin müasir şəraiti bizdə xoş ovqat yaratdı. Burada xidmət edən əsgərlərin gülər üzləri, yüksək əhvali-ruhiyyəsi deməyə əsas verir ki, hər kəs yaradılan şəraitdən məmnundur və belə mühitdə xidmət etməkdən qürur duyur. Belə ürəkaçan şərait əsgər valideynlərini də razı salır. Bu gün əsgər valideynləri hərbi xidmətdə olan övladlarının qidalanması və məişəti sarıdan heç bir narahatçılıq yaşamırlar. Çünki şahidi olurlar ki, bütün hərbi hissə və bölmələrimizdə şəxsi heyətin sosial-məişət şəraiti, əşya-ərzaq təminatı yüksək səviyyədədir. Bunların da hamısı Ali Baş Komandan İlham Əliyevin orduya, hərbi qulluqçulara diqqət və qayğısının parlaq təcəssümüdür. Orduya çağırılan hər bir gənc də bu qayğıdan ilhamlanıb öz vəzifəsini şərəflə yerinə yetirir.

Bu da əlbəttə, hər kəsdə əminlik yaradır ki, Azərbaycan Ordusu istənilən döyüş tapşırığını yerinə yetirməyə qadirdir və bayrağımızı Şuşada, Xankəndidə dalğalandırmaq üçün Ali Baş Komandanın "hücum" əmrini gözləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***









# Xalqın sevgisini qazanan siyasət

*Əvvəli 1-ci səh.*



Ona görə də hər görüş, qısa ünsiyyət möhtəşəm hadisəyə çevrilir. İnsanların həyatında bir ömürlük xoş xatirə yaradır. Belə anlar bir çox hallarda kameraların nəzərindən də yayınmır. Həyatın ayrı-ayrı anlarından olan şəkillərdə, videogörüntülərdə faktlaşan dövlətçilik salnaməsinə dönür.

Prezident İlham Əliyev Azərbaycanın nailiyyətlərlə dolu ən yeni tarixinin yaradıcısıdır. Ölkə rəhbərinin bu Vətənin sıravi vətəndaşları - yaşlısı, cavanı, uşağı, böyüyü ilə belə sevgi dolu çoxsaylı görüşlərində əslində insanlarla birgə Azərbaycanın başlıca uğur sirri də əks olunub.

Hələ 2003-cü ildə xalqın yekdil dəstəyi ilə Azərbaycan Respublikasının Prezidenti seçilərkən İlham Əliyevin gələcəklə bağlı dilə gətirdiyi sözlərdən biri məhz "Mən hər bir azərbaycanlının Prezidenti olacağam!" idi.

Bu görüşlərsə dövlətimizin rəhbərinin həmin tarixdən bəri keçən hər günün bu anda sadiqliyinə şahidlik edir. Verdiyi sözü tutmasının, həqiqətən hər bir azərbaycanlının Prezidenti ola bilməsinin portretidir.

Bu, əslində dövlətə rəhbərlik mərhələsindən də yuxarı adlamaq və insanların qəlbində yer tutmaqdır. Onlar üçün həyatdakı ən doğma, ən qayğıkeş insanlardan birinə çevrilməkdir.

Əslində liderlərin də can atdığı elə bu deyilmi?!

Amma belə bir ucalıq çox az siyasət adamına nəsib olur. Çünki bu mərhələyə yüksəlməkdən ötrü özün xalqın halını anlamalısan. İnsanların dövlətdən, dövlət adamından istəkləri, gözləntiləri nədir bilməlisən, xoş günündə də, dar məqamında da yanında olmalısan. Ən əsası isə, o xalqı, o xalqın aid olduğu Vətəni sidqürəkdən sevməlisən. Prezident İlham Əliyevə belə böyük xalq sevgisi qazandıran məhz həyata keçirdiyi siyasətin real işə söykənməsidir. İnsanların rifahına xidmət etməsidir. Bu gün dilə gətirilən adi kəlmələrin, sabah ölkənin ən ucqar obalarına doğru uzanan abad yollara, işıq, su elektrik xətlərinə, bu xalqın övladları üçün işıqlı məktəblərə, xəstələrimizin şəfa tapdığı tibb müəssisələrinə, insanlara xidmət obyektlərinə, ailələrin getdikcə bərəkətə gələn gündəlik ruzisinə, xoş güngüzəranına çevrilməsidir.

Bu günlərdə dövlət rəhbərimiz Beyləqan rayonunda səfərdə oldu. Rayonun sıravi sakinləri ilə görüşdə onlarla birgə oxuduğu "Azərbaycanım" mahnısının nəqarət misraları ilə doğma yurduna sevgisini, xalq-Prezident vəhdətinin sarsılmazlığını bütün dünyaya duydurdu. Vətənin keşiyində dayanmış əsgər balalarımızla özü də bir əsgər atası kimi eyni masa arxasında əyləşərək çörək kəsməsi onun həm də vətən övladlarına doğma münasibətinin təcəssümü idi.

Bir ana-ata öz övladına necə sevgi bəsləyərsə, bu xalq da Prezidenti İlham Əliyevə, respublikanın birinci xanımı Mehriban Əliyevaya belə bağlıdır. Bir insan hansısa həlledici anda öz doğmasının təəssübünü necə çəkirsə, Azərbaycan adlı böyük ailəmizin üzvləri də həyata keçirilən dövlət siyasətinə belə dəstək olur, Vətən evinin abadlaşdırılmasına töhfə verməyə çalışırlar.

## Mehriban Əliyeva qəlbinin böyüklüyü

Vətənin hər yerində onu böyük sevgi ilə gözləyirlər. Bu sevginin kökləri dərindədir: sadə insanlara məhəbbət, onlara bağlılıq. Belə bağlılığın nəticəsində güclü bir qadının - dövlət adamının hər bir işi, hətta bu işlərin ən xırda görünəni də sosial təsir yaradır, insanların qəlbində, yaddaşında iz qoyur. İlkin niyyət olmadan onlar sosiallaşır və cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edir. Onun obrazı adamların qəlbində doğmalıq və güvənc yaradır. İnsanlar onu yaxın himayədar, ümid yeri, səmimi bir dayaq, köməkdaş kimi görürlər.

Mehriban xanım Əliyevanın yükü və məsuliyyəti ağır və həm də şərəflidir. O, yaradıcı və qurucu bir iradə sahibidir. Azərbaycanın Birinci vitse-prezidentinin inkişafa, tərəqqiyə doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılığa çevrilib. Mehriban xanım Əliyeva tarixin miqyaslı tədbirlərinin diplomatı olub. Ölkəmizi Şərqin qədim mədəniyyətinin əsas mərkəzlərindən biri kimi tanıtmaq, musiqimizdən tutmuş idmana qədər bütün sahələrdə ənənələrimizi sevdirmək onun beynəlxalq miqyasdakı fəaliyyətinə xüsusi milli məna və çəki verib. Onun gördüyü işlər bəhrəli və nəticəlidir. Bu tədbirlərin ilkin nəticəsi Azərbaycanın dünyadakı dostlarının sayının artmasıdır. Həm də bu dostlar kimdir? Beynəlxalq aləmdə sözü keçən, səsi eşidilən, tanınan insanlar. Onlar ölkəmizə gəlib bizim yaşayışımızı, həqiqətlərimizi, xalqımızın nəcibliyini və tərəqqisini gözləri ilə görür və dünyaya çatdırırlar. Bizə düşmən gözü ilə baxanlarla ideoloji mübarizədə bunun əhəmiyyəti misilsizdir.

Mehriban xanım Əliyevaya olan ümumxalq məhəbbətinin cövhəri həm də onun bu yurdun insanlarına qayğı və şəfqətlə yanaşmasıdır. Bu illərdə Azərbaycan adına gördüyü işlər, vətəndaşların həyatının yaxşılaşması üçün çəkdiyi fədakar zəhmət onu Azərbaycan ailələrinin əziz bir üzvünə çevirib.

Mehriban Əliyeva öz səmimi davranışları ilə bu xoş nümunəni illərdir ki, yaradır.

Azərbaycan vətəndaşları ölkənin Birinci vitse-prezidentini doğmaları gözündə görürlər. İnsanlar dərdlərini, problemlərini, arzu və diləklərini heç bir tərəddüd keçirmədən ona çatdırırlar. Adam ancaq ona ən doğma kəslərlə münasibətdə bu qədər tərəddüdsüz ola bilər.

Bu günlərdə Mehriban xanım Əliyevanın qızı Leyla xanım Əliyeva ilə birgə Gəncəyə səfərini izlədik. Şəhərin "Xan bağı"nda gəncəlilərin onları necə məhəbbətlə qarşıladıqlarının bir daha şahidi olduq.

## Heydər Əliyevdən əxz edilmiş dövlətçilik dərsi

Belə görüşlərdə elə bir adam yoxdur ki, dövlətin kömək əlindən hansısa formada faydalanmasın, bu tədbirlər onun həyatına müsbət təsirini göstərməsin. Bir vətəndaş yeni çəkilən yollara görə şükranlıq edir, digəri yeni məktəbə görə təşəkkürünü çatdırır, başqa birisi xəstə yaxınının müalicəsinə göstərilmiş dəstəyə görə minnətdarlığını yetirir, hansısa gənc xaricdə təhsilinə yaradılmış köməkdən, bu gün peşəkar mütəxəssis kimi əldə etdiyi yüksək karyera imkanlarından dolayı sevincini, fərəhini bölüşür.

Yaxşılıq itmir, insanlar qədirbiləndir. Onlar rifahları üçün görülmüş işlərə görə təşəkkür duyğularını ilıq kəlmələrlə dilə gətirməyi özlərinə mənəvi borc bilirlər. Prezidentə salamlarını yetirməsini xahiş edirlər.

Mehriban xanım isə onların dövlətdən yeni gözləntilərini bilmək istəyir. Onları narahat edən, dövlətin köməyi ilə həllini arzuladıqları məsələləri birbaşa bu insanların öz dilindən eşitməyə üstünlük verir. Zatən bölgələrə səfərlərin, insanlarla sıx ünsiyyətin məqsədi də elə budur: "Burada həyata keçirilən bu abadlaşma, bu inkişaf hər zaman bizim diqqətimizdədir, hər zaman bizi sevindirir. Amma, eyni zamanda, yenə də deyirəm ki, hələ də öz həllini tapmayan problemlər də var. Biz onları bilməliyik, biz onların həlli üçün ardıcıl tədbirlər həyata keçirməliyik. Çünki əsas məqsəd odur ki, insanlar rahat, xoşbəxt yaşasınlar və ölkəmizdə bunun üçün hər şey var".

Bəli, dövlət rəhbərliyinin məramı Azərbaycan insanının rahat, təhlükəsiz, firavan həyatının təmin olunmasıdır. Onun inkişafına təkan verilməsidir.

Bütün bunlar nəcib əməlləri ilə Azərbaycan xalqının ürəyində özünə əbədiyyət heykəli ucaltmış ulu öndər Heydər Əliyevdən əxz edilmiş dövlətçilik dərsləridir.

İş belə görülər.

Dövlət belə qurular.

İnsan tarixdə belə əbədiləşər.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Heydər Əliyev Sarayında "Zima-2019" beynəlxalq uşaq festivalı keçirilib











Azərbaycan Mədəniyyət Nazirliyinin və "Beat Group" şirkətinin dəstəyi ilə Heydər Əliyev Sarayında "Zima-2019" beynəlxalq uşaq festivalı keçirilib.

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iştirak edib.

AZƏRTAC xəbər verir ki, konsertdən əvvəl qırmızı xalı üzərindən keçən gənc vokalçılar festivaldan gözləntilərini paylaşdılar.

Vokal üzrə pedaqoq, Ukraynanın əməkdar artisti Rimma Şapovalova jurnalistlərə müsahibəsində festival iştirakçılarına böyük ümidlər bəslədiyini bildirərək yeni istedadların üzə çıxarılmasında belə tədbirlərin əhəmiyyətini qeyd etdi. "Belə gözəl uşaqlarla işləmək mənə böyük zövq verir. Əminəm ki, onların parlaq gələcəyi var və bu uşaqlar hələ özlərini göstərəcəklər. Bu konsert xeyli müddət yaddaşlarda qalacaq", - deyə Rimma Şapovalova bildirdi.



Sonra möhtəşəm qala-konsert oldu. Festivalda çıxış edən iyirmidən çox gənc istedad Azərbaycanın və dünyanın məşhur hitlərini səsləndirdilər.

Sonda bütün iştirakçılara diplom və xatirə hədiyyələri təqdim edildi.

Qeyd edək ki, festivalda iştirak üçün 100-dən çox istedad müraciət etmişdi. Onların yalnız 21-i finala çıxıb.

Festivalda, həmçinin Türkiyə, Rusiya, Gürcüstan və digər ölkələrdən olan ifaçılar iştirak ediblər.

Festivalın quruluşçu rejissoru əməkdar incəsənət xadimi Ülviyyə Könül, layihənin musiqi prodüseri Rüstəm Rzayev, vokal üzrə pedaqoq isə Rimma Şapovalovadır.

# Azərbaycanın xarici işlər nazirinin Münxendə bir sıra görüşləri olub

Fevralın 16-da Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Qırğız Respublikasının xarici işlər naziri Çingiz Aydarbekov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tərəflər Azərbaycan ilə Qırğızıstan arasında mövcud olan əməkdaşlıq münasibətlərini müzakirə edib, ikitərəfli əlaqələrin bütün istiqamətlər üzrə daha da möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

Nazirlər Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası) çərçivəsində əməkdaşlıq məsələlərinə toxunaraq, iştirakçı ölkələr arasında iqtisadi-ticarət və turizm sahələrində əlaqələrin daha da inkişafının önəmini qeyd ediblər. Həmçinin Türk Şurasının növbəti zirvə görüşünə hazırlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Görüşdə regional məsələlər və qarşılıqlı maraq doğuran digər mövzular müzakirə edilib.

* * *

Fevralın 16-da Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarovun Münxen Təhlükəsizlik Konfransı çərçivəsində Xorvatiyanın Baş nazirinin müavini, xarici və Avropa işləri üzrə naziri Mariya Buriç ilə görüşü olub.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşdə nazirlər iki ölkə arasında mövcud olan əməkdaşlıq münasibətlərini müzakirə edərək ikitərəfli strateji əlaqələrin hazırkı səviyyəsini məmnunluqla qeyd ediblər.

Tərəflər bir sıra sahələrdə əlaqələrin daha irəli aparılması, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

* * *

Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyada səfərdə olan xarici işlər naziri Elmar Məmmədyarov ABŞ-ın Milli Təhlükəsizlik Şurasının baş direktoru Fiona Hill ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, tərəflər Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında ikitərəfli dialoq və əməkdaşlıq məsələləri ətrafında müzakirələr aparıblar. Elmar Məmmədyarov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə danışıqlar prosesinin hazırkı vəziyyəti barədə ABŞ rəsmisini məlumatlandırıb. Münaqişənin həllinin bölgədə dayanıqlı inkişaf və əmin-amanlığı təmin edəcəyi vurğulanıb.

Görüş zamanı tərəflər arasında, həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər üzrə fikir mübadiləsi aparılıb.

# Ölkəmiz hərbi təcavüzün nəticələrini aradan qaldırmaq əzmindədir

*Əvvəli 1-ci səh.*

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi istiqamətində göstərilən səylər davam edir. Amma tərəflərdən hər birinin problemin həllinə öz baxışı var. Təcavüzkar tərəf beynəlxalq hüquq normalarını qulaqardına vurur, işğalın nəticələrini qanuniləşdirmək üçün dəridən-qabıqdan çıxır, gah Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin zəruriliyinə beynəlxalq dəstək qazanmağa çalışır, gah da Dağlıq Qarabağa müstəqillik verilməsinin yeganə həll vasitəsi olduğunu inandırmağa səy göstərir.

Münaqişənin tənzimlənməsinə münasibətdə Azərbaycanın ədalətli mövqeyi isə dəyişməz olaraq qalır: suveren dövlətin ərazi bütövlüyü və hamı tərəfindən tanınmış sərhədləri müzakirə mövzusu ola bilməz! Problemin həlli yalnız beynəlxalq hüquqa əsaslanmalıdır, çünki hərbi təcavüzün nəticələrinin tanınması ilə əldə edilən sülhün möhkəm və əbədi olması mümkün deyil.

Azərbaycan rəhbərliyi ötən müddət ərzində münaqişənin həlli üçün güclü hüquqi baza yaratmağa müvəffəq olmuşdur. Bir çox mötəbər beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT, NATO, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı münaqişə ilə bağlı həqiqətləri əks etdirən qətnamələr qəbul etmişdir. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədində ölkəmizin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına dəstək ifadə olunmuşdur. Bu sənədlər münaqişənin tənzimlənməsi üçün yetərli hüquqi baza yaradır. Başqa sözlə, beynəlxalq ictimaiyyət Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır, Ermənistanın ərazi iddialarını yaxına buraxmır. Bu o deməkdir ki, münaqişənin həlli yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür.

Bununla yanaşı, Azərbaycan təcavüzkar tərəfi sülhə məcbur etmək üçün sərəncamında olan bütün vasitələri işə salır. Söhbət ilk növbədə Ermənistanın blokadasının gücləndirilməsindən gedir. Hərbi təcavüz nəticəsində Ermənistan Azərbaycan kimi mühüm bazarı itirmişdir. Qardaş Türkiyə də işğalçı dövlətlə sərhədlərini bağlamışdır. Üstəlik, Ermənistan Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən beynəlxalq əhəmiyyətli inkişaf layihələrindən kənarda qalmışdır. Yerevanın havadarları nə qədər cidd-cəhd etsələr də, cürbəcür təzyiqlər göstərsələr də, onu regional əməkdaşlıq prosesinə qoşa bilməmişlər.

Digər tərəfdən, Azərbaycan milli iqtisadiyyatını inkişaf etdirərək hərbi gücünü artırmaqda davam edir. Ordumuzun müasir silahlarla təchiz edilməsi, hərbi hazırlığın yüksək səviyyəyə qaldırılması düşməni narahat etməyə bilmir. Eyni zamanda düşmən Azərbaycan əsgərinin gücünü hiss etməyə başlamış, Ermənistan ordusunun yenilməzliyi mifi puç olmuşdur. 1916-cı il aprel döyüşləri ordumuzun nəyə qadir olduğunu göstərdi, Azərbaycan əsgərinin qələbə əzmini nümayiş etdirdi. Düşmən işğal etdiyi ərazilərin bir hissəsindən geri çəkilməyə məcbur oldu, aldığı zərbənin səbəbkarı kimi havadarlarını suçlamağa başladı. İki ildən sonra Silahlı Qüvvələrimiz Naxçıvanda daha bir uğurlu əməliyyat keçirdi. Qoşunlarımız bir sıra strateji yüksəklikləri ələ keçirdi və bu, düşmənin strateji kommunikasiyalarına nəzarət etməyə imkan verdi. Bütün bunlar ordumuzun qüdrətini əks etdirən mühüm hadisə olaraq tariximizə qızıl səhifələr kimi yazıldı.

Göründüyü kimi, Azərbaycan erməni təcavüzünün nəticələrini aradan qaldırmaq üçün irəliyə doğru inamlı addımlar atır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, indi Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir.

***Allahverdi MEHDİYEV,***
***"Azərbaycan"***

# Həm şad, həm də çətin gündə xalqla birlikdə

*Əvvəli 1-ci səh.*

Ümidin Novruz bayramına təsadüf edən ad gününü dövlət başçısı öz xanımı və övladları ilə birlikdə Prezident sarayında qeyd etdi. 11 yaşlı oğlanın şərəfinə tort kəsildi, ona qol saatı bağışlandı.

Ad günü demişkən, Prezident İlham Əliyev özünün doğum günlərini də bir qayda olaraq xalqın nümayəndələri ilə birlikdə keçirir. Hamımız Prezidentin özünün doğum günlərində cəbhə xəttində əsgərlərin, Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin, sadə vətəndaşların yanında olmasının şahidiyik. Bu, sadəliyi və təvazökarlığı, səmimiyyəti və xoş ünsiyyəti həyat tərzinə çevirən, "Mən xalqın birinci xidmətçisiyəm və bütün məmurlar belə işləməlidir" deyən İlham Əliyevin sözü ilə əməlinin ayrılmaz olduğunu təsdiqləyir.

İnsanların ağır, çətin günlərində də Prezident onların yanındadır. 2016-cı ilin zəfərli aprel döyüşlərindən sonrakı ilk günləri xatırlayaq. O darmacalda dövlət başçısı, Ali Baş Komandan dərhal vaxt tapıb hospitala gəldi. Torpaq uğrunda qan axıtmış yaralı döyüşçülərin ayrı-ayrılıqda hər birinin vəziyyətini soruşdu, hər birinin şücaətini ayrıca dəyərləndirdi, hamısına şəfa dilədi, tezliklə sağalmalarını arzuladı, hamısına minnətdarlığını bildirdi. Həmin ağrılı-qürurlu günlərdə şəhidlərin doğmalarını da unutmadı. Dərhal şəhid ailələrinin üzvləri ilə, yaralıların doğmaları ilə görüşdü. Onlara ürək-dirək verdi.

Prezident hər yerdə - Azərbaycanın hər bölgəsində, hər kəndində körpələri beləcə məhəbbətlə bağrına basır. Hər yerdə qocalara diqqət və qayğı ilə, hörmətlə yanaşır. Onları səbirlə dinləyir, ehtiyaclarını, problemlərini öyrənir. "Mən hər bir azərbaycanlının Prezidentiyəm" dediyi gündən bugünə kimi belədir. Bu yaxınlarda Şamaxıda zəlzələdən zərər çəkmiş insanlarla görüşündə də bunun əyani şahidi olduq. Təbii fəlakətdən sonra 9 nəfərlik ailə üzvləri ilə birlikdə balaca bir otağa sığınan Saray nənənin həmin çətin anlarda "kaş İlham Əliyev indi gəlib dadımıza çata" deyə ürəyindən keçirməsi nə qədər təbii hissdir! Və bu təsadüfi bir hiss deyil! Çünki Azərbaycan vətəndaşı dar məqamda Prezidentinin onun imdadına çatacağını dəqiq bilir! Belə bir vaxtda Saray nənə də yanılmamış və Prezidentin qapını açıb daxil olduğunu görəndə ürəyi dağa dönmüşdü.

Bu günlərdə Prezident İlham Əliyev Beyləqan rayonunda da səfərdə oldu.

Ali Baş Komandan yeni inşa edilmiş "N" saylı hərbi hissədə yaradılan şəraitə baxdı. Əsgərlərin süfrəsində onlarla birlikdə çörək kəsdi. Mingəçevir-Stansiya Mingəçevir-Bəhrəmtəpə-Beyləqan avtomobil yolunu açaraq 7 yaşayış məntəqəsinə dəyərli bir hədiyyə bəxş etdi. Beyləqan Olimpiya İdman Kompleksinin açılışı isə bölgənin gənclərinə böyük hədiyyə oldu. Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin açılışından sonra isə Prezident yenə də öz ənənəsinə sadiq qaldı. Muzeyin yerləşdiyi parkda istirahət edən rayon sakinləri ilə görüşdü.

Bu görüş də həmişə və hər yerdə olduğu kimi maraqlı və yaddaqalan oldu. Vətəndaşlar dövlət başçısına onlara yaradılan şəraitə görə, o cümlədən bu günlərdə minimum əməkhaqqının 130 manatdan 180 manata qaldırıldığına görə minnətdarlıqlarını bildirdilər. Rayon Mədəniyyət mərkəzinin işçisi olan müğənni öz duyğularını xoş avazla, musiqinin dili ilə ifadə etdi. Azərbaycanı vəsf edən məşhur mahnılardan birini oxumağa başladı. İzdiham da ona qoşuldu, dövlətin başçısı da... Bu, çox maraqlı, çox təsirli və mənalı bir məqam idi! Dövlət-vətəndaş birliyini bir daha göstərən, Prezident-xalq münasibətlərini təcəssüm etdirən, rəhbərin daim insanlarla birlikdə, həm şad, həm də dar gündə onların yanında olduğunu təsdiqləyən bir məqam!..

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Ermənistan ordusu atəşkəs rejimini 25 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonunun Voskevan, İcevan rayonunun Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı, Cəfərli və Bala Cəfərli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub. Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Şıxlar, Abdinli, Füzuli rayonunun Qərvənd, Qorqan və Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# MADE IN AZERBAIJAN

# Avropada ilk "Azərbaycan Ticarət Evi"

## İki il öncə Belarusda fəaliyyətə başlayan mərkəzdə Azərbaycan şirkətlərinin istehsal etdiyi 20-dən çox çeşiddə məhsul "Made in Azerbaijan" brendi ilə nümayiş olunur

**Azərbaycan məhsullarının ixracının genişləndirilməsi və "Made in Azerbaijan" brendinin xarici bazarlarda tanıdılması məqsədilə ticarət evlərinin açılması əhəmiyyətli tədbirlərdəndir. Ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixracının təşviq edilməsi məqsədilə xarici ölkələrdə bu gün 7 "Azərbaycan Ticarət Evi" fəaliyyətdədir. Onlardan ilki 2017-ci ilin may ayında Belarusda açılıb.**

### Azərbaycan-Belarus iqtisadi münasibətləri yeni mərhələdə

İki ölkə arasında diplomatik əlaqələrin yaradılması haqqında protokol 11 iyun 1993-cü ildə imzalanıb. 2006-cı ilin fevral ayında isə Belarusun Azərbaycanda, həmin ilin avqust ayında Azərbaycanın Belarusda səfirlikləri açılıb.

Bu il uğurlu diplomatik münasibətlərin 26 ili tamam olan Belarus-Azərbaycan əlaqələri artıq yeni inkişaf mərhələsindədir. Son illərdə fəal qarşılıqlı əlaqələr iki ölkəni bir-birinə o dərəcədə yaxınlaşdırıb ki, nəinki regionda, həm də dünyada Belarus və Azərbaycanı dost ölkələr hesab edirlər. İndiyədək iki ölkə arasında 118 mühüm tərəfdaşlıq sənədləri imzalanıb.

"Made in Azerbaijan" brendi ilə məhsullarımızın nümayiş olunduğu bu ticarət evi artıq iki ilə yaxındır ki, fəaliyyətdədir. Ticarət evinin açılışı ilə bağlı danışıqlar 2016-cı ildə aparılıb. Belə ki, həmin ilin noyabr ayında Azərbaycana səfər edən Belarus Prezidenti Aleksandr Lukaşenko ilə Prezident İlham Əliyev arasında aparılan danışıqlar zamanı Belarusda "Azərbaycan Ticarət Evi"nin yaradılması məsələsi də müzakirə mövzusu olub. Prezidentlərin apardığı danışıqlardan sonra qısa müddət ərzində iki ölkə arasında əmtəə dövriyyəsinin artırılması, Azərbaycanın idxalında Belarus məhsullarının payının çoxaldılması, bu ölkədə istehsal edilməyən kənd təsərrüfatı və emal sənayesi məhsullarının Azərbaycandan idxal olunması barədə tapşırıqlar verildi. Bu görüşdən cəmi 6 ay sonra isə həmin tapşırıqların icrası olaraq, Azərbaycan İqtisadiyyat Nazirliyi tərəfindən Belarusun paytaxtı Minsk şəhərində ümumi sahəsi 529 kvadratmetr olan "Azərbaycan Ticarət Evi" yaradıldı.



### İlk "Azərbaycan Ticarət Evi"nin açılışı

2017-ci il may ayının 27-də Belarusda hər iki ölkənin dövlət və hökumət nümayəndələrinin, o cümlədən Azərbaycan-Belarus Parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinin, həmçinin iş adamlarının iştirakı ilə "Azərbaycan Ticarət Evi"nin açılışı oldu.

Tədbirdə çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev dövlət başçılarının iki ölkələ arasında si-




yasi-iqtisadi əlaqələrin genişləndirilməsinə böyük önəm verdiyini vurğulayaraq, Azərbaycan-Belarus əməkdaşlığının qarşılıqlı dostluq prinsipləri üzərində qurulduğunu, uğurla inkişaf etdiyini və strateji tərəfdaşlıq səviyyəsində olduğunu diqqətə çatdırdı. Şahin Mustafayev Minskin gözəl guşələrindən birində "Azərbaycan Ticarət Evi"nin açılmasının iqtisadi əlaqələrin, investisiya əməkdaşlığının genişləndirilməsinə, ticarətin şaxələndirilməsinə töhfə verəcəyini vurğuladı.

### Heç bir vasitəçi olmadan Belarusa birbaşa ixrac

Bu gün ticarət evi "Made in Azerbaijan" brendinin Belarus bazarında daha çox tanıdılması, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsi sahəsində fəaliyyət göstərir, satışı təşkil edir, bu sahədə əlaqələndirməni həyata keçirir. Ticarət evində daimi fəaliyyət göstərən sərgidə Azərbaycanın 30 şirkətinin istehsal etdiyi (şərab və konyak, meyvə şirələri, kompotlar, mineral sular, tərəvəz, mürəbbələr, turşular, konservlər, bitki yağları, çay, xalça, tekstil, ipək və kosmetika malları, elektrik avadanlıqları, plastik məmulatlar və s.) müxtəlif növ məhsullar nümayiş olunur. Burada, həmçinin "ASAN" və "ABAD" stendləri də ziyarətçilərə təqdim edilir.

Bu ticarət evinin açılması həm də Azərbaycan məhsullarının heç bir vasitəçi olmadan Belarusa birbaşa ixracı üçün gözəl imkan yaradıb.

Ötən il noyabrın 19-da Belarusda rəsmi səfərdə olan Prezident İlham Əliyev Minskdə "Azərbaycan Ticarət Evi" ilə də tanış oldu.

Bu məsələyə prezidentlərin geniş tərkibli görüşündə və mətbuata bəyanatlarla çıxışlarında da toxunuldu. İlham Əliyev qeyd etdi ki, şəhərin mərkəzində Azərbaycanın yaraşıqlı guşəsi yaradılıb və orada nailiyyətlərimiz Belarus vətəndaşlarına nümayiş etdiriləcək: "Bizim məhsullarımız artıq Belarus bazarına çıxıb və onlara yaxşı tələbat var. Biz bu baxımdan belaruslulardan geri qalmışıq. Artıq Bakıda yüksək keyfiyyətli və bizim vətəndaşlar arasında çox məşhur olan Belarus məhsullarını satan yeddi ticarət müəssisəsi mövcuddur. Biz məhsullarımızı Belarus bazarına çıxarmaq niyyətindəyik. Düşünürəm ki, bu, həm bizim ikitərəfli ticari-iqtisadi əlaqələrimizi möhkəmləndirəcək, həm də bir-birimizin imkanlarını daha çox nümayiş etdirəcək".

### Belarusda məhsullarımıza böyük tələbat var

Belarus Prezidenti Aleksandr Lukaşenko isə öz növbəsində bıldirdi ki, beynəlxalq ticarət ikitərəfli ticarətdir. Buna görə də Belarus bazarında Azərbaycan mallarının artırılmasına maraq var. Ona görə də gələcəkdə bu şəbəkəni inkişaf etdirərək vilayət mərkəzlərinə keçmək nəzərdə tutulur: "Tanrının izni ilə, bu mağazalar və bu ticarət evləri sizin məhsullarla dolu olacaq. Həmin məhsulları təkcə belaruslar almır. Ukrayna hadisələri ilə əlaqədar bütün axınlar Belarusdan keçir, Azərbaycan məhsullarına çox böyük tələbat var. Xüsusən ona görə ki, azərbaycanlılar ticarəti bacaran ən yaxşı adamlardır, mən bunu həmişə etiraf etmişəm. Bunu necə etməyi biz sizdən öyrənməliyik. Bununla əlaqədar keçən il Minskdə ticarət evi açılmasını alqışlayıram. Biz bu layihəyə maksimum dəstək veririk, əmtəə dövriyyəsinin tarazlaşdırılmış artımı istiqamətləri üzrə təklifləri bundan sonra da dəstəkləmək niyyətindəyik".

Aleksandr Lukaşenko onu da əlavə etdi ki, Belarus Azərbaycan investisiyalarına və yüksək səviyyəli məhsullarına maraq göstərir. Hazırda Azərbaycan məhsulları "Azərbaycan Ticarət Evi"ndə geniş təqdim edilir. Onların Belarus alıcılarında maraq oyatmasına görə Azərbaycan Prezidenti bu şəbəkənin vilayət mərkəzlərinə genişləndirilməsi haqqında qərar qəbul edib.

### Ticarət evinin məqsədi və xidməti

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Azərbaycan məhsullarının ixracının dəstəklənməsi, ixracın həcminin və coğrafiyasının genişləndirilməsi, "Made in Azerbaijan" brendinin təşviqi məqsədilə artıq 7 ölkədə "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Bu il daha bir neçə olkədə yeni ticarət evlərinin açılması gözlənilir.

Xarici ölkələrdə açılan ticarət evlərinin məqsədi və xidmətinə gəlincə isə onu deyə bilərik ki, bu mərkəzlər istehsal olunan məhsulun heç bir vasitəçi olmadan ixracına imkan yaradır, ölkələr arasında iqtisadi əlaqələrin daha da genişlənməsinə stimul verir və xarici iş adamlarını Azərbaycan məhsulları ilə yaxından tanış etməklə ölkəmizə investisiyaların cəlb olunmasına şərait yaradır.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## 3 ildə sahibkarlara 6766 lisenziya verilib

**2018-ci ildə sahibkarlara 2048 lisenziya verilib ki, bunun da 1384-nü yeni, 664-nü isə müddətsiz lisenziyalarla əvəzetmə təşkil edir.**



Ümumilikdə isə, İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzləri vasitəsilə 2 noyabr 2015-ci il tarixindən 1 yanvar 2019-cu il tarixinədək sahibkarlara 6766 lisenziya verilib. Ötən ilin martında "Lisenziyalar və icazələr" portalı yaradılıb və portal vasitəsilə artıq 587 elektron lisenziya verilib.

2018-ci ildə isə, sahibkarlara investisiya dəyəri 801 milyon manat olan layihələr üzrə 107 investisiya təşviqi sənədi və bu investisiya təşviqi sənədləri əsasında 1058 təsdiqedici sənəd təqdim edilib.

## 185 ölkə ilə ticarət əməliyyatları həyata keçirilib

**Ötən il Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 185 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 113 ölkəyə məhsul ixrac edilib, 178 ölkədən isə idxal olunub.**




2018-ci ildə ölkənin xarici ticarət dövriyyəsi 31 milyard 755,9 milyon dollar, o cümlədən ixracın dəyəri 20 milyard 290,9 milyon dollar, idxalın dəyəri 11 milyard 465 milyon dollar təşkil edib. Göründüyü kimi nəticədə 8 milyard 825,9 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

## Ukraynaya 300 "Khazar" avtomobili ixrac olunacaq

**Bu il "Khazar" avtomobilləri Ukraynaya ixrac ediləcək. "Azərmaş" ASC-nin idarə heyətinin sədri Emin Axundov bildirib ki, ilkin olaraq 300 avtomobilin ixracı nəzərdə tutulur. İxraca ilin ortalarında başlanılacaq.**

İdarə heyətinin sədrinin sözlərinə görə, bu günə qədər 1250 "Khazar" avtomobili satılıb. Onların 400-ə yaxını dövlət idarələri, qalan hissəsi isə vətəndaşlar tərəfindən alınıb. Avtomobillərin 25-30 faizi kredit yolu ilə satılıb.



## "KOB Dostu" Qəbələdə

**İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin "Kiçik və Orta Biznesin Dostu" ("KOB Dostu") Qəbələdə də fəaliyyətə başlayıb.**

Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi

Bu, Şəki-Zaqatala iqtisadi rayonu üzrə ilk "KOB Dostu"dur və Qəbələ rayonu ilə yanaşı, ətraf rayonlarda fəaliyyət göstərən sahibkarların xidmətindədir. "KOB Dostu" ilə birgə ofisdə KOB könüllüləri də fəaliyyət göstərəcək.

Hazırda 9 şəhər və rayonda 12 "KOB Dostu" fəaliyyət göstərir. Bu il ölkənin digər regionlarında da "KOB Dostu" yaradılacaq.

## İraqa və Polşaya ixrac missiyaları təşkil ediləcək

**Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO) tərəfindən martın 2-dən 6-dək İraqa, martın 6-dan 10-dək isə Polşaya ixrac missiyası təşkil edəcək.**

İraqa təşkil olunacaq missiya qida, tekstil, tikinti, informasiya texnologiyaları sahələrini, Polşaya yollanacaq missiya isə qida, alkoqollu içkilər, tekstil, kosmetika sahələrini əhatə edəcək.

## Rusiyaya ixrac edilən məhsulun çeşidi də artır, həcmi də

**Moskvada keçirilən "Prodexpo 2019" beynəlxalq ərzaq sərgisində Azərbaycan məhsulları da nümayiş olunub. Sərgidə iştirak edən şirkətlərimiz ilə xarici tərəfdaşları arasında aparılan müzakirələrin nəticəsi olaraq Azərbaycan məhsullarının ixracına dair bir sıra razılıqlar əldə olunub.**



Belə ki, Azərbaycanın "Azhazelnut" şirkəti 21 ton fındığın, "A+Co" şirkəti isə 20 ton şərabın Rusiyaya ixracına dair müqavilələr imzalayıblar. "Cəlilabad Şərab-2" şirkəti ilə iki Rusiya şirkəti arasında isə 100 min şüşə şərabın ixracına dair razılıq əldə olunub.

Bundan başqa, Azərbaycanın "Gilan Agro and FMCG Group" şirkəti konserv məhsullarının, "Cuve" şirkəti fındığın, "Aznar" şirkəti nar şirəsinin, "D fruits" şirkəti konservləşdirilmiş meyvə və meyvə qurularının, "Tac" şirkəti sərinləşdirici içkilərin, "Buta Agro" şirkəti isə istehsal etdiyi meyvə və tərəvəzin Rusiyaya ixracına dair razılığa gəliblər.

# İstehsal da artır, ixrac da...

## Zaqatala gül, fındıq, tütün və barama məhsulları ilə "Made in Azerbaijan" brendinin dünyada tanıdılmasına böyük töhfə verir

**Hazırda ölkəmizdə iqtisadiyyatın daha da inkişaf etdirilməsi üçün mühüm istiqamətlərdən biri regionların özünü maliyyələşdirməsi və mövcud iqtisadi potensialdan daha səmərəli istifadə olunmasıdır. Bununla əlaqədar icra strukturlarına idxalı əvəzedən və ixracyönümlü istehsal, emal və infrastruktur müəssisələrinin yaradılması, inkişaf etdirilməsi istiqamətində tapşırıqlar verilib. Buna uyğun olaraq Zaqatala rayonunda da məqsədyönlü tədbirlər davam etdirilir.**







### Ölkəmizi dünyada daha çox tanıdan bölgə

Təsadüfi deyil ki, Zaqatala son illər qida sənayesinin inkişaf etdirilməsi istiqamətində öz sözünü deməkdədir. Eyni zamanda "Made in Azerbaijan" brendli məhsulları ilə ölkəmizi dünyada daha çox tanıdan bölgələrimizdəndir. İxrac yönümlü məhsullar arasında isə qərzəkli meyvələr, xüsusən də fındıq xüsusi çəkiyə malikdir.

Rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə deyir ki, Prezident İlham Əliyevin göstərişi əsasında ənənəvi sahələrdən olan pambıqçılıq, fındıqçılıq, tütünçülük və kümçülüyün inkişafı eyni zamanda ixrac yönümlü məhsulların artımına da əhəmiyyətli töhfədir. Prioritet seçilən müvafiq istiqamətlərlə bağlı dövlət başçısının verdiyi tövsiyələr Zaqatalada da yerinə yetirilib. Respublikamızda gedən inkişaf fındıqçılıqda da özünü göstərib.

Belə ki, qərzəkli bağçılıq təsərrüfatlarının inkişaf etdirilməsi istiqamətində rayonda mövcud olan fındıq bağlarının sahəsinin iki dəfə artırılması ilə əlaqədar müvafiq tədbirlər davam etdirilib. Bu məqsədlə rayonda ötən illərdə təsis olunmuş Fındıq İstehsalçıları və İxracatçıları Assosiasiyası İctimai Birliyi, eləcə də "Zaqatala Aqrosənaye" MMC və "Agrarco" MMC-nin fəaliyyəti uğurlu olub.

### 19 min 505 hektarlıq fındıq bağları

Fındıq bağı sahələrinin artırılması istiqamətində əhali arasında mütəmadi maarifləndirmə işləri aparılıb. Bütün qüvvələr səfərbər olunmaqla Zaqatala rayonunda proqnozlaşdırılmış 10 min hektar sahədə yeni fındıq bağlarının salınması istiqamətində tədbirlər başa çatmaq üzrədir.

Məlumat üçün bildirək ki, fındıqçılığın inkişaf etdirilməsi üçün 2016-cı ilin payızında 1 milyon 700 min ədəd pöhrə tədarük olunmaqla, rayonda 2560 hektar sahədə yeni fındıq bağı salınıb. Ümumi fındıq bağlarının sahəsi 16 min 420 hektara çatdırılıb. 2017-ci ilin yaz mövsümündə isə 598 hektar sahədə yeni fındıq bağları salınıb. Məqsədyönlü tədbirlər davam etdirilərək elə həmin ilin payız mövsümündə 1134 hektardan artıq sahədə yeni bağlar salınaraq rayonda mövcud fındıq bağları 18 min 151,5 hektara çatdırılıb.

Keçən il də fındıq bağlarının salınması sistemli şəkildə davam etdirilib. Beləliklə də 2018-ci ilin yazında 352 hektar, payızında isə 1001,5 hektar olmaqla, cəmi 1353,5 hektar sahədə yeni fındıq bağları salınıb ki, hazırda mövcud bağlar 19 min 505 hektar təşkil edir.

### Ötən il 15 min 69 ton fındıq satılıb

Müvafiq sahənin inkişafına elmi yanaşmanın təmin edilməsi üçün rayonda fəaliyyət göstərən Meyvəçilik və Çayçılıq Elmi-Tədqiqat İnstitutunun Zaqatala Bağçılıq Dayaq Məntəqəsində sınaq məqsədi ilə "Ocaq şəkilli", "V" şəkilli, "Cərgə üsullu" və "8*8" əkin sxemləri ilə bağlar salınıb. Gələcəkdə əkilməsi üçün "Ata-baba" fındıq sortuna aid 8 min ədəd ting yetişdirilir.

Fındıq məhsulunun istehsalı və ondan əldə olunan gəlirlər də illər üzrə dinamikada cəlbediciliyi ilə seçilir. 2016-cı ildə 8910 ton fındıq istehsal olunduğu halda, bundan təxminən 78 milyon manata qədər vəsait əldə olunub. 2017-ci ildə isə 14 min 200 ton məhsuldan 124 milyon manata yaxın gəlir götürülüb. 15 min 69 ton isə fındıq 2018-ci ildə istehsal olunub və həmin məhsulun realizasiyası tam yekunlaşmadığı üçün əldə olunan qazanc bəlli deyil. Hələ ki, satış davam edir. Buna baxmayaraq qazancın əvvəlki illərdən çox olacağı ehtimalı böyükdür.

### Almaniya, İtaliya, Rusiya və Türkiyəyə birbaşa ixrac

Hazırda sahibkarlar fındıq ləpəsinin satışını ya Türkiyədən olan həmkarları vasitəsi ilə, yaxud da birbaşa reallaşdırırlar. Rayon ərazisində fındıq emalı ilə məşğul olan qida sənayesi müəssisələri birbaşa Almaniya, İtaliya, Rusiya və Türkiyəyə öz məhsullarını satırlar. Bu da həmin müəssisələrin sənaye potensialı üçün böyük baza formalaşdırır.

Bu gün Zaqatala ixrac potensialına malik gül, fındıq, tütün və barama məhsulları ilə "Made in Azerbaijan" brendinin dünyada tanıdılmasına öz töhfəsini verməkdədir.

Hazırda əkilən fındıq bağları da yaxın gələcəkdə Zaqatalanın inkişafına lazımi təsirini göstərəcək. Çünki fındıq əkildikdən ən azından 5-6 il sonra məhsul gətirir. Rayonda 2006-cı ildə əkilmiş ağaclar indiki halda normal məhsul verməkdədir.

### Məhsullarımız dünya bazarında şöhrət qazanır

Zaqataladakı fındıq emalı müəssisələrindən "Aqrovest" MMC xüsusi ilə seçilir. Direktor Malik Aslanov deyir ki müəssisə 2000-ci ildən fəaliyyətdədir. Onlar öz məhsullarını Rusiya Federasiyasına, əsasən də Avropa ölkələrinə ixrac edir. Bu sıraya Almaniya, Fransa, İsveçrə, İtaliya daxildir. Ümumilikdə isə müəssisənin məhsulları keyfiyyətinə görə dünyada tanınır.

2018-ci ildə müəssisə 5 min tona qədər fındıq məhsulu qəbul edib və bundan da təxminən 4 min tonu artıq emal edilib. Onun da 1000 tonu sifarişçilərə çatdırılıb. Hazırda qalan məhsulun satışa hazırlanması istiqamətində işlər gedir. Müqavilə bağlanan şirkətlərə tələbə uyğun həcmdə fındıq göndərilir.

Əsas tədarükçülər Zaqatala, Qax, Balakən və Qəbələ fındıqçılarıdır.

Müəssisədə işçilərin sayı 200 nəfərdir. Bunlar Lahıc, Suvagil, Qımır, Bəhmətli və Zəyəm kəndlərinin sakinləridir.

Məhsulun keyfiyyəti ilə bağlı müəssisədaxili laboratoriya da fəaliyyət göstərir. Eyni zamanda Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri buradakı məhsuldan götürdükləri nümunəyə verdikləri rəydən sonra məhsul xaricə göndərilir.

Görünən odur ki, Zaqatalada fındıqçılıq sahəsi başda olmaqla çoxlu sayda ixracyönümlü məhsullar var. Diqqətçəkən tərəfi də həmin məhsulların satış bazarı baxımından korluq çəkməməsidir. Nəticədə həm əliqabarlı istehsalçı qazanır, həm də emal prosesində iştirak edən zəhmətkeş insanlar. Bizə isə sonda bunu demək qalır: "Məhsulunuz hər zaman bol, ruziniz bərəkətli olsun"!

***Əli SƏLİMOV, "Azərbaycan"***

# Əhalinin məşğulluğunun təmin edilməsi diqqətdə saxlanılır

Dövlət başçısı İlham Əliyevin sürətli tərəqqiyə xidmət edən məqsədyönlü və ardıcıl siyasəti sayəsində əldə olunan müsbət göstəricilər respublikamızda ikinci böyük şəhər olan Gəncədə də özünü qabarıq göstərir. Başqa sözlə, şəhərin sosial-iqtisadi həyatının bütün sahələrində müşahidə olunan inkişaf dinamikası 2018-ci ildə də qorunub saxlanılmış, əhalinin sosial durumu daha da yaxşılaşmışdır.









Qeyri-neft sektorunun inkişafı istiqamətində həyata keçirilən tədbirlər, görülən işlər davamlı inkişafa, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına təkan vermişdir. Belə ki, 2018-ci ildə şəhər iqtisadiyyatının aparıcı sahəsi olan sənayedə fəaliyyət göstərən fiziki və hüquqi təsərrüfat subyektləri tərəfindən əvvəlki ilə nisbətən 399 milyon 912 min manat çox sənaye məhsulu istehsal olunmuşdur.

Sahibkarlığın inkişafı üçün yaradılan münbit şərait nəticəsində özəl müəssisələr tərəfindən istehsal olunan məhsulların həcmi ümumi sənaye məhsullarının 69,6 faizini təşkil etmişdir. Həmin məhsulların 54 faizi respublika daxilində, 46 faizi Rusiya, Türkiyə, Polşa, Çexiya, İtaliya, Ukrayna, Belarus, Gürcüstan və digər ölkələrə ixrac olunmuşdur. Sənaye sektorunda işləyənlərin əməkhaqqı 473 manat olmuşdur.

Əvvəlki illərdə olduğu kimi, "Gəncə avtomobil zavodu" İstehsalat Birliyi şəhər iqtisadiyyatında yenə də mühüm yer tutmuşdur. Minsk Traktor Zavodu ilə bağlanmış müqaviləyə əsasən Gəncə zavodu "Belarus" traktorlarının istehsal həcmini bir qədər də artırmışdır. Hazırda "Gəncə avtomobil zavodu"nun Türkiyədə filialının açılması istiqamətində işlər aparılır. Yaxın vaxtlarda zavodun qardaş ölkədə fəaliyyətə başlayacaq filialında həmin traktorların yığımına başlanacaqdır. Bundan başqa, "MAZ" markalı avtomobillərin bazasında respublikamız üçün əhəmiyyətli olan bütün növ xüsusi təyinatlı maşınların istehsalı, "KamAZ", "URAL" markalı avtomobillərin yığımının genişləndirilməsi də nəzərdə tutulmuşdur.

Keçən il şəhərdə tikinti-quruculuq işlərinin həcmi də xeyli genişləndirilmişdir. Əhali sektorunda 3 milyon 967 min manat şəxsi vəsaiti hesabına ümumi sahəsi 15 min kvadratmetr olan yaşayış evi tikilmişdir. Ümumi sahəsi 5 min 586 kvadratmetr olan "Majestik" adlı mehmanxana, ümumi sahəsi 2 min 500 kvadratmetr olan, 8 mərtəbəli "Otel Univermaq" və Hacıkənd qəsəbəsində 7 mərtəbəli "ARFA", Nizami Gəncəvi prospektində 8 və 4 mərtəbəli, Şah İsmayıl Xətai prospektində 4 mərtəbəli, Zərifə Əliyeva prospektində 2 mərtəbəli mehmanxanalarda inşaat işləri sürətlə davam etdirilir. İl ərzində şəhərin ayrı-ayrı ünvanlarında 182 çoxmənzilli binanın dam örtüyü yenilənmişdir. Şəhərdə genişmiqyaslı abadlıq-quruculuq işləri ilə yanaşı, əhalinin və nəqliyyat vasitələrinin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Nizami Gəncəvi prospekti, Fikrət Əmirov, Ş.Bahəddin, Əttarlar, Təbriz, Gəncəvi, Firdovsi, Qara Qarayev, Azərbaycan bayrağı, İsax Cəfərov adına və digər küçələrdə təmir işləri aparılmışdır.

"Hərəmiz bir ağac əkək!" devizi ilə keçirilən iməcilikdə Heydər Əliyev parkında 10 min ağac əkilmişdir. Həmin ərazilərin suvarılması üçün 18 subartezian quyusu təmir edilərək istifadəyə verilmişdir.

Dövlət başçısı İlham Əliyevin qarşıya qoyduğu vəzifələrdən biri də nəqliyyat, rabitə və informasiya texnologiyaları sektorunun təkmilləşdirilməsidir. 2018-ci ildə də bu sahədə işlərin yenidən qurulması istiqamətində xeyli iş görülmüşdür. 5 hektar ərazidə inşa edilən Beynəlxalq Avtovağzal Kompleksi sərnişinlərin ixtiyarına verilmiş, dekabrın 29-da Bakı-Gəncə marşrutu üzrə sürət qatarı fəaliyyətə başlamışdır.

Dövlət siyasətinin prioritet sahələrindən olan əhalinin məşğulluğunun təmin edilməsi də daim diqqət mərkəzində saxlanılmışdır. Şəhər məşğulluq mərkəzinə müraciət edən 3944 nəfər vətəndaşın 2655 nəfəri işlə təmin edilmişdir ki, onların da 1106 nəfəri qadındır.

Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrdən biri də iş adamları tərəfindən investisiya qoyuluşuna diqqətin artırılmasıdır. Bu vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar şəhərdə sahibkarlığın inkişaf etdirilməsi üçün iş adamlarına hər cür şərait yaradılmışdır. Bunun nəticəsidir ki, bu istiqamətdə müəyyən nailiyyətlər qazanılmış, sahibkarlar tərəfindən istehsal müəssisələrinin və qeyri-istehsal sahələrinin yaradılması və yenidən qurulması üçün 108 milyon 818 min manatdan çox investisiya qoyulmuşdur. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2011-2018-ci illər ərzində 126 sahibkara 37 milyon manatdan çox güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşması nəticəsində 720 yeni iş yeri açılmışdır. Şəhərin iqtisadi potensialından səmərəli istifadə və ixracyönümlü məhsul istehsalının təşviqi istiqamətində həyata keçirilmiş tədbirlər nəticəsində ötən il istehsalla məşğul olan iş adamları tərəfindən 184 milyon manata yaxın məhsul dünya bazarlarına çıxarılmışdır. Bundan başqa, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi nəticəsində sahibkarlıq subyektlərinin sayı da xeyli artmışdır.

Gəncə şəhərində içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı mühüm layihələr həyata keçirilir. Başqa sözlə, Almaniyanın KfW bankının krediti hesabına "Açıq Kommunal İnfrastruktur Proqramı II" layihəsi çərçivəsində su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması üzrə tikinti-quraşdırma işləri sürətlə davam etdirilir. Respublikanın qərb bölgəsinin içməli və suvarma suyu ilə təminatında mühüm əhəmiyyət daşıyan Şəmkirçay su anbarının istismara verilməsi ətraf şəhər və rayonların içməli su ilə təminatı üçün böyük imkanlar yaratmışdır. Şəmkirçay sutəmizləyici qurğusundan Gəncə şəhərinə suyun verilməsini təmin etmək üçün uzunluğu 27,5 kilometr olan magistral su kəmərinin tikintisi artıq yekunlaşmışdır. Gəncə və Şəmkir şəhərləri üçün alternativ mənbə hesab olunan Şəmkirçay sutəmizləyici qurğusu istismara verildikdən sonra bu mənbədən Gəncə şəhərinə saniyədə 1141 litr içməli su veriləcəkdir.

Şəhər icra hakimiyyətinin daim diqqət mərkəzində saxladığı məsələlərdən biri də elm, təhsil, eləcə də məktəbəqədər uşaq tərbiyə müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi, təhsilin keyfiyyətcə və məzmunca beynəlxalq standartlara inteqrasiyası məsələsidir. Bu istiqamətdə bir sıra məqsədyönlü işlər görülmüşdür. Belə ki, 1076 şagird yerlik 7 nömrəli tam orta məktəbin binasında əsaslı təmir işlərinə başlanılmışdır. 18, 28 və 34 nömrəli tam orta məktəblərin əsaslı təmiri üçün isə hazırlıq işləri görülür.

Təhsil sistemində aparılan yenidənqurma işləri ümumi göstəricilərdə öz müsbət nəticələrini göstərir. Bu inkişafı 2017-2018-ci tədris ilində ali məktəblərə qəbul imtahanlarında da görmək mümkündür. Qəbul imtahanlarında 264 nəfər 500-dən, 90 nəfər 600-dən, 30 nəfər 650-dən yuxarı bal toplayan, 1 nəfər isə ən yüksək - 700 balla tələbə adını qazanmışdır.

Həm dövlət başçısı İlham Əliyev, həm də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva əhalinin sağlamlığına böyük diqqət ayırır, hərtərəfli qayğı göstərirlər. Bu diqqət və qayğı sayəsində tibb müəssisələrinin maddi-texniki bazası gücləndirilir, təminat yaxşılaşdırılır. Xüsusilə tibbi kadrların ixtisas səviyyəsinin yüksəldilməsi sahəsində görülən işlərin nəticəsidir ki, bu gün ölkəmizdə çox mürəkkəb əməliyyatlar həyata keçirilir, əvvəllər mümkün olmayan müasir müalicə üsulları tətbiq edilir ki, bunun da nəticəsində əhalinin sağlamlığını xarakterizə edən göstəricilərdə müsbət dinamika müşahidə olunur.

Son illər Gəncə səhiyyəsində də yenilənmə prosesi gedir. Belə ki, keçən il 200 çarpayılıq psixiatriya xəstəxanası üçün yeni müasir tələblərə uyğun 2 korpus və bir yardımçı binanın tikintisinə başlanılmışdır. Hazırda 2 saylı poliklinikada, 2 saylı uşaq xəstəxanasının anesteziologiya və reanimasiya şöbəsində, eləcə də 1 saylı uşaq xəstəxanasında təmir işləri sürətlə davam etdirilir.

Ötən il şəhərin səhiyyə müəssisələrinin yeni tibbi avadanlıq və qurğularla təchizatı istiqamətində də xeyli iş görülmüşdür. Qadın məsləhətxanası tərəfindən göstərilən tibbi xidmətə diqqət artırılmış, məsləhətxanaya koaqulometr, hematoloji laborator analizator, regional Perinatal Mərkəzə fototerapiya aparatı, uşaqlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsi məqsədilə 1 saylı Birləşmiş Uşaq Xəstəxanasına elektroensefaloqraf verilmişdir.

Xalqımızın milli-mənəvi dəyərlərinin, zəngin mədəni irsinin qorunub saxlanması, gələcək nəsillərə ötürülməsi istiqamətində müəyyənləşdirilmiş kompleks tədbirlər dövlət siyasətinin əsas prioritetlərindən biridir. Keçən il bu baxımdan Gəncədə xeyli iş görülmüşdür. "Şah Abbas" və "Uğurlu xan" karvansaralarının əsaslı təmir və bərpası istiqamətində işlər başa çatdırılmışdır. Bundan başqa, Balabağban və Qazaxlar məscidlərində ilkin görünüşlərinə xələl gətirmədən təmir-bərpa işləri aparılmışdır. Hacıkənd qəsəbəsində Gəncə şəhər kitabxana sisteminin 17 saylı kitabxana filialı əsaslı təmirdən sonra yeni məkana köçürülmüş, "Nizami Gəncəvi: Sələflər və Xələflər" adlı park istifadəyə verilmişdir. İl ərzində Gəncə şəhərinə turist qismində gələnlər üçün Heydər Əliyev park kompleksinə, Mirzə Şəfi Vazeh muzeyinə, Məhsəti Gəncəvi Mərkəzinə, Nizami Gəncəvi muzeyinə, "Gəncəçay" park-bulvar kompleksinə, Hacıkənddə Xalq Cümhuriyyəti Muzeyinə və sair tarixi-memarlıq abidələrinə ekskursiyalar təşkil edilmişdir.

Keçən il Gəncə idmançıları üçün də uğurlu olmuşdur. Belə ki, il ərzində şəhərdə keçirilən 53 müxtəlif idman yarışlarında 9 mindən çox gənc iştirak etmişdir. 30-a yaxın respublika yarışlarında 64 nəfər birinci, 52 nəfər ikinci, 51 nəfər isə üçüncü yerə layiq görülmüşdür. İdmançılardan 100 nəfər beynəlxalq, 8 nəfər Avropa, 7 nəfər dünya çempionatlarında iştirak etməklə ümumilikdə 47 medal qazanmışlar ki, onlardan da 20-si qızıl, 5-i gümüş, 22-si bürünc medal olmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Sahibkarlara daim diqqət göstərilir



Fevralın 16-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla görüşü olub, muxtar respublikanın investisiya reytinqində qalib olması ilə bağlı təqdimat keçirilib. Ali Məclisin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Vasif Talıbov çıxışında deyib: "Ölkəmizdə yaradılan əlverişli biznes mühiti və özəl sektora göstərilən diqqət sahibkarlığın inkişafı üçün geniş imkanlar açıb. Ölkə Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunmuş konfransda demişdir ki, "Sahibkarlıqla bağlı siyasətimiz davam etdiriləcək. Sahibkarlara dövlət tərəfindən böyük dəstək verilir - həm mənəvi dəstək, siyasi dəstək, həm də maddi dəstək. Azərbaycan nadir ölkələrdəndir ki, öz sahibkarına bu qədər diqqət göstərir".

Ali Məclisin Sədri deyib: "Naxçıvan Muxtar Respublikasında sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsidir ki, ümumi daxili məhsulda özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötmüşdür. Hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Bu gün muxtar respublikada istər sənayenin, istərsə də kənd təsərrüfatının inkişafı sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait nəticəsində mümkün olmuşdur. Bir faktı qeyd etmək yerinə düşər ki, hazırda muxtar respublikada məşğul əhalinin 83 faizə yaxını özəl sektorda çalışır. Sənaye sahəsində məhsul istehsalının 94 faizi, tikintidə görülən işlərin və nəqliyyat xidmətinin 78 faizi, rabitə xidmətinin 82 faizi, kənd təsərrüfatı, ticarət və ictimai-iaşə xidmətlərinin isə 100 faizi özəl bölmənin payına düşür ki, bu da çox yüksək göstəricilərdir".

Ali Məclisin Sədri sağlam rəqabət mühiti formalaşdırdığına görə "Caspian European Club"un rəhbərliyinə, eləcə də ölkəmizin və muxtar respublikanın sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrasında əməyi olan bütün sahibkarlara təşəkkür edib.

"Sahibkarlığın inkişafında məqsəd ondan ibarətdir ki, daha çox məhsul istehsal olunsun, daha çox yeni iş yerləri açılsın, sahibkarlıq subyektlərinin ixrac imkanları artsın, ailə təsərrüfatları genişlənsin. Bunun üçün muxtar respublikada hər cür imkan və şərait yaradılıb. Qalır təşəbbüs göstərmək, fəaliyyəti genişləndirmək, rəqabətədavamlı məhsul istehsal etmək və ölkəmizin ümumi inkişafına töhfə vermək", - deyən Ali Məclisin Sədri ümummilli lider Heydər Əliyevin "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" fikirlərini xatırladıb, bu yolda sahibkarlara və tədbir iştirakçılarına uğurlar arzulayıb.

Tədbirdə "Caspian European Club"un 2018-ci il üçün Azərbaycanın iqtisadi regionlarının 18 parametr üzrə hazırlanmış illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ən yüksək ümumi bal toplayaraq ardıcıl ikinci dəfə lider olması ilə bağlı təqdimat keçirilib.

"Caspian European Club"un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev dünyanın 70 ölkəsindən 5 mindən artıq şirkət və təşkilatı birləşdirən "Caspian European Club"un 2018-ci ildə ölkəmizin 10 iqtisadi regionu üzrə hazırlanan illik investisiya reytinqində Naxçıvan Muxtar Respublikasının ikinci dəfə lider olması və muxtar respublikanın yaranmasının 95-ci ildönümü münasibətilə təbriklərini çatdırıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının investisiya reytinqində qalib olması artıq bir ənənəyə çevrilib. Bu da ulu öndər Heydər Əliyevin vətəni Naxçıvan Muxtar Respublikasında yaradılmış sabitliyin, özəl sektorun inkişafına göstərilən qayğının, açılan yeni iş yerlərinin və rəqabətədavamlı məhsul istehsalının nəticəsidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov, Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov, Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının sədri, "Cahan Holdinq" Kommersiya Şirkətləri İttifaqının direktoru Vüqar Abbasov, "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin icraçı direktoru Kamil Yusifov, "Zümrüd Geyim" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru, qadın sahibkar Mehrəngiz Əkbərova, Babək rayonunun Hacıvar kəndində fəaliyyət göstərən heyvandarlıq təsərrüfatı və süd məhsullarının istehsalçısı İlqar Mirzəyev çıxış edərək Naxçıvanda sahibkarlara və iş adamlarına yaradılmış şəraitə görə dövlətə minnətdarlıqlarını bildiriblər.

Sonra Ali Məclisin Sədri yeni istehsal və xidmət sahələrinin yaradılması üçün 14 sahibkara güzəştli kreditlərin çeklərini təqdim edib. Bu kreditlər ərzaq məhsulunun istehsalına, quşçuluq təsərrüfatının yumurtalıq sahəsinin yenidən qurulmasına, birdəfəlik istifadə üçün kağız stəkan istehsalı, ətlik istiqamətində heyvandarlıq, damazlıq arı təsərrüfatlarının və balın emalı sahələrinin, arıçılıq təsərrüfatlarının genişləndirilməsinə, meyvə-tərəvəz məhsullarının, yabanı növ bitkilərin tədarükü və konservləşdirilməsinə, limon istixana təsərrüfatının, eləcə də soyuducu anbarın yaradılmasına sərf olunacaqdır.

Tədbirdə 2018-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafından bəhs edən film nümayiş etdirilib.

Ali Məclisin Sədri Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxıb.

# Dövlət dəstəyi inkişafa stimul verir

Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin müvəffəqiyyətlə həyata keçirilməsi Tərtər rayonunun simasını da köklü şəkildə dəyişdirmişdir. Başqa sözlə, dövlətin daimi qayğısı sayəsində infrastruktur layihələri uğurla icra olunmuş, əhalinin həyat səviyyəsi yüksəlmişdir.





2018-ci ildə rayonun sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr edilmiş yığıncaqda davamlı qayğı və diqqətə görə ölkə rəhbərinə minnətdarlıq dönə-dönə vurğulanmışdır. Rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov hesabat məruzəsində keçən ilin uğurlu yekunlarından ətraflı danışmış, yeni ildə qarşıda duran vəzifələrdən ətraflı söz açmışdır.

Qeyd olunmuşdur ki, Tərtər şəhəri inşaat meydanını xatırladır. Daş üstə qoyulan hər daş, ucalan hər bina, əkilən hər yaşıl ting rayonun hüsnünə yeni naxış vurur. Rayon mərkəzində 100 yerlik körpələr evi-uşaq bağçası, Ağkənd kəndində kitabxana binası tikilib istifadəyə verilmişdir. Bayandur və Poladlı kəndlərində modul tipli məktəblər quraşdırılmışdır. Şəhər 6 nömrəli tam orta və Qazyan kənd ümumi orta məktəblərinin binaları əsaslı təmir olunmuşdur. Uzunluğu 21,5 kilometr olan Buruc-Güləbətli-Xoruzlu-Kəbirli-Bayandurlu-Qaradağlı kəndlərarası avtomobil yolu yenidən qurulmuş, 14 kənddə yerli əhəmiyyətli avtomobil yollarında təmir-bərpa işləri aparılmışdır. Mamırlı, Poladlı, Evoğlu və Təzəkənd kəndlərində içməli su təminatının yaxşılaşdırılması layihəsinin icrasına başlanılmışdır. "Azərxalça" ASC-nin Tərtər filialının tikintisi başa çatdırılmışdır. Hazırda olimpiya idman kompleksinin, Bayraq muzeyinin, rayon icra hakimiyyətinin yeni inzibati binasının tikintisi, Kovdadıq kəndində 20 şagirdlik ibtidai və Zolgörən kəndində 56 şagirdlik ümumi orta məktəblər üçün modul tipli məktəblərin quraşdırılması sürətlə davam etdirilir.

Ötən ilin iqtisadi uğurlarından danışılarkən qeyd edilmişdir ki, ümumi məhsul buraxılışının həcmi 174,6 milyon manat olmuşdur. Bunun 14,7 milyon manatı sənayenin, 64,4 milyon manatı isə kənd təsərrüfatı məhsullarının payına düşür. İl ərzində bütün maliyyə mənbələri hesabına əsas kapitala 38,2 milyon manat investisiya yönəldilmişdir. Bütövlükdə keçən ildə 563-ü daimi olmaqla 4380 yeni iş yeri açılmışdır.

Rayonda sahibkarlar üçün əlverişli şərait yaradılması məqsədilə zəruri tədbirlər görülmüşdür. Sahibkarlara dövlət dəstəyi gücləndirilir, onlara verilən güzəştli kreditlərin həcmi ildən-ilə artırılır. Bu da bol və keyfiyyətli kənd təsərrüfatı məhsullarının istehsalına əhəmiyyətli təsir göstərir. Hesabat ilində 16 nəfər sahibkara 397 min manat güzəştli kredit verilmişdir. Təqdirəlayiq haldır ki, sahibkarlar rayon iqtisadiyyatına həvəslə sərmayə yatırırlar. Keçən il rayon iqtisadiyyatına qoyulan investisiyaların həcmi 3 milyon manata yaxın olmuşdur. Xoruzlu kəndində "Aqropat" MMC tərəfindən salınmış intensiv bağçılıq təsərrüfatında nübar məhsul gözlənilir. "Azaqrokənd" MMC-nin Soyulan kəndində yaratdığı istixana kompleksi rayon əhalisinin il boyu faraş tərəvəzə olan tələbatını ödəməyə imkan yaradacaq.

Dəfələrlə bu cəbhə bölgəsinə səfər edən Prezident İlham Əliyev rayonda aparılan abadlıq-quruculuq təsərrüfat işlərinin təşkilindən həmişə razı qalır, bu bölgənin inkişaf dinamikasını sürətləndirmək üçün qayğı və diqqətini əsirgəmir. Prezident səfərlərinin birində demişdir: "Tərtər rayonunun uğurlu inkişafı məni çox sevindirir. Şəhərin abadlaşması, şəhərdə və rayonda infrastruktur layihələrinin icrası göstərir ki, Azərbaycanın bütün bölgələri uğurla inkişaf edir və bizim vaxtilə qəbul etdiyimiz regionların sosial-iqtisadi inkişafı proqramı həyatda öz əksini tapır. Biz son illər ərzində bunu Tərtər rayonunun timsalında görürük".

Yığıncaqda Regionların sosial-iqtisadi inkişafına dair III Dövlət Proqramının uğurla icra edildiyi vurğulanmış, Tərtər rayonu üzrə nəzərdə tutulmuş tədbirlərin müvəffəqiyyətlə yerinə yetirildiyi qeyd olunmuşdur. 2014-2018-ci illərdə Tərtərdə 12 məktəb, 3 körpələr evi-uşaq bağçası, 9 inzibati bina, bir tibb məntəqəsi tikilmiş və ya əsaslı təmir edilmişdir. Qarabağ müharibəsi əlilləri və şəhid ailələri üçün 54 mənzilli bina 14 nəfərə fərdi yaşayış evi, uşaq gənclər şahmat məktəbi, tarix-diyarşünaslıq muzeyi, 1176 məcburi köçkün ailəsi üçün yeni çoxmərtəbəli binalar tikilmişdir. Rayon ərazisində 2 ədəd strateji əhəmiyyətli körpü istifadəyə verilmişdir. Tərtər şəhərinin içməli su və kanalizasiya sistemi qurulmuş, 15 kənd su ilə təchiz olunmuşdur. 112 ictimai yaşayış binasının dam örtükləri, fasad və giriş hissələri əsaslı təmir olunmuş, 4 küçədə abad məhəllə yaradılmış, 2 minifutbol meydançası inşa edilmişdir. Rayon icra hakimiyyəti binasının qarşısındakı mərkəzi meydan və Heydər Əliyev parkı yenidən qurulmuşdur. Bütövlükdə şəhərin 36 küçə və meydanında təmir-abadlıq işləri aparılmışdır. Təmas xəttində yerləşən 5 kənddə gecə işıqlandırılması sistemi quraşdırılmışdır. 2016-cı ilin aprel hadisələri zamanı 17 yaşayış məntəqəsində 256 fərdi yaşayış evinə dəymiş ziyan aradan qaldırılmışdır. Rayonda ekoloji tarazlığın qorunması məqsədilə Bərdə-Ağdam və Gəncə istiqamətində yol kənarlarına və rayonun meşə zolaqlarında 36 mindən çox müxtəlif növ ağac, 6 min gül kolu və 650 min ədəd həmişəyaşıl kol əkilmişdir.

Yığıncaqda Prezident Administrasiyasının məsul işçisi Arif Novruzov və Milli Məclisin deputatı Sahib Alıyev çıxış edərək dövlət başçısının rəhbərliyi ilə ölkədə həyata keçirilən sosial-iqtisadi inkişafdan, qazanılan uğurlardan, qarşıda duran vəzifələrdən danışmışlar.

Sonda 2018-ci ildə kənd təsərrüfatı sahəsində fərqlənən bir qrup sahibkara rayon icra hakimiyyətinin fəxri fərmanları və qiymətli hədiyyələr təqdim olunmuşdur.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# İsmayıllıda kooperativ yaradılıb

İsmayıllı rayonunun Külüllü kəndi ərazisində "Külüllü kənd təsərrüfatı məhsullarının istehsalı" kooperativi yaradılıb. Kooperativdə 29 nəfər torpaq mülkiyyətçisi ilkin mərhələdə 140 hektardan artıq pay torpaq sahələrini, texnika və digər istehsal vasitələrini cəmləyərək birgə təsərrüfat forması yaradıblar.

Bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı əkin torpaqlarının da əkilib-becərilməsi barədə kooperativ üzvləri qarşılıqlı razılıq əldə ediblər.

Əvvəllər pərakəndə halda istifadə olunan torpaqların birləşdirilərək əkilib-becərilməsinin üstünlüklərini kooperativ üzvləri yaxşı başa düşür və belə təsərrüfatçılıq formasının yüksək nəticələr əldə edəcəyinə inanırlar. Həmçinin onlar bu kooperativin ölkənin ərzaq təhlükəsizliyinə yüksək töhfələr verəcəyinə şübhə etmirlər.

Kooperativ bütün prosedurlardan keçirilib və hüquqi status alıb. Yekun olaraq rayonda yaradılan bu müəssisə kooperasiya formasında çalışmaq istəyən hər bir torpaq payçısı üçün açıqdır.



***"Azərbaycan"***

# Tələbə gənclərə qayğı ölkə Prezidentinin daim diqqətindədir

Azərbaycanın iqtisadi gücü artdıqca ölkə vətəndaşlarının sosial həyat şəraiti, maddi rifah halı da yaxşılaşır. Bu sırada tələbə-gənclərə göstərilən qayğı xüsusi önəm daşıyır. Dövlət başçısının istəyi odur ki, müasir gənclik dünya standartlarına uyğun yaraşıqlı binalarda, geniş və rahat auditoriyalarda ali təhsil almaqla yanaşı, maddi cəhətdən də korluq çəkməsinlər.

Ölkə rəhbəri tərəfindən "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli fərmanında dəyişiklik edilməsi barədə fərman imzalaması da buna xidmət edir. Sənədə əsasən, ali məktəb tələbələri üçün Prezident təqaüdünün 185 manatdan 210 manata qədər artırılması nəzərdə tutulur. Bu fərman 2019-cu il martın 1-dən qüvvəyə minəcəkdir. Redaksiyaya daxil olan teleqramlardan, müraciətlərdən və telefon zənglərindən məlum olur ki, ölkənin tələbə-gəncləri, eləcə də onların valideynləri və yaxınları bu fərmanı minnətdarlıq hissilə qarsılayıblar.

Ölkə rəhbərinin "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin AMEA-nın magisturatura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" sərəncamı da ictimaiyyət tərəfindən rəğbətlə qarşılanıb.

Sərəncama əsasən, dövlət büdcəsinin vəsaiti hesabına doktorantura pilləsi üzrə, elmlər doktoru hazırlığı üzrə doktorantlara 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara 180 manat, ali təhsil müəssisələrində və Milli Elmlər Akademiyasında təqaüd alan tələbələrə 170 manat təqaüd təyin edilib.

Magistratura səviyyəsi üzrə akademik göstəriciləri 91-100 bal olan tələbələr - 145 manat, 71-100 bal olan tələbələr - 120 manat, 51-100 bal olan tələbələr isə 80 manat alacaqlar. Bakalavr səviyyəsi üzrə akademik göstəriciləri 91-100 bal olan tələbələrə 130 manat, 71-100 bal olan tələbələrə 110 manat, 51-100 bal olan tələbələr isə 75 manat təqaüd müəyyən edilib.

Orta ixtisas təhsili müəssisələrində akademik göstəriciləri 91-100 bal olan tələbələrə 75 manat, 71-100 bal olan tələbələrə 60 manat, 51-100 bal olan tələbələrə 50 manat təqaüd veriləcək. Peşə təhsili müəssisələrinin tələbələrinə isə 50 manat təqaüd təyin edilib.

Sərəncamda bildirilir ki, təqaüdlərin ödənilməsi, doktorantura pilləsində, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistura səviyyəsində dövlət sifarişi və dövlət hesabına təhsilalanların sayı saxlanılmaqla, dövlət büdcəsindən təqaüd üçün ayrılan vəsait həddində həyata keçiriləcək. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu sərəncamdan irəli gələn digər məsələləri həll etmək tapşırılıb. Bu sərəncam cari il martın 1-dən qüvvəyə minəcək.

Dövlət başçısı ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə də sərəncam imzalayıb. Sərəncam yüksəkixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılmasına və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılmasına şərait yaradacaq.

Sərəncama əsasən, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu il martın 1-dən 16 min vahid artırılıb. Təqaüd alan tələbələrin sayının tələbələrin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq 50 faizdən az olmayan səviyyəyə çatdırılması qərara alınıb. Nazirlər Kabinetinə tapşırılıb ki, bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulmuş tədbirlərin müəyyənləşdirilməsi məqsədilə cari ilin və növbəti illərin dövlət büdcəsinə maliyyə təminatı məsələlərinin həlli ilə bağlı zəruri tədbirlər həyata keçirsin. Nazirlər Kabineti Prezidentin aktlarının bu sərəncama uyğunlaşdırılmasına dair təkliflərini bir ay müddətində hazırlayıb ölkə rəhbərinə təqdim etməlidir.

Ölkə vətəndaşlarına məlumdur ki, son bir neçə ildə Azərbaycan Prezidentinin göstəriş və tövsiyələrinə əsasən təqaüdlər və pensiyalar artırılır. Yeri gəldikcə digər sosial problemlər də həllini tapır. Tələbələrin təqaüdlərinin artırılması isə Azərbaycan Prezidentinin ölkə gəncliyinə diqqət və qayğısının göstəricisidir. Bu, eyni zamanda gənclərin təhsilinin inkişafına və keyfiyyətinə təsir edəcək əsas amildir. Ölkə ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan bu sərəncamlar respublikamızın gənc oğlan və qızlarının yaxşı oxumalarına, yüksək bilik və təhsil almalarına səbəb olacaqdır.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Əbədi ehtiram ünvanı

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkil etdiyi "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" adlı VIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin iştirakçıları fevralın 16-da Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ümummilli lider Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gedən gənclər ölkəmizin azadlığı və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad edib, məzarları üzərinə gül dəstələri qoyublar.

Bakının ən hündür nöqtəsindən Azərbaycan paytaxtının mənzərəsini seyr edən layihə iştirakçılarına Şəhidlər xiyabanının tarixi və paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov jurnalistlərə müsahibəsində bildirib ki, mərkəz Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr həyata keçirir. İldə iki dəfə təşkil edilən beynəlxalq multikulturalizm qış və yay məktəblərinin məqsədi Azərbaycan multikulturalizmini öyrənən tələbələrin nəzəri şəkildə öyrəndiklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır. Qış məktəbində Azərbaycan, Gürcüstan, Çexiya, Almaniya, Serbiya, Hindistan, Bosniya və Herseqovina, Avstriya, Yaponiya, İspaniya, Tacikistan, Yunanıstan, Portuqaliya, Rusiya, Bolqarıstan, San Tome və Prinsipi Demokratik Respublikası, Braziliya kimi ölkələrin tələbələri iştirak edirlər. İcraçı direktor qış məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında mühazirələr oxunacağını qeyd edib.

Qış məktəbinin Portuqaliyadan olan iştirakçısı Joio Mestri deyib: "Azərbaycan mənim marağımda olan bir ölkədir. Biz bu səfərimiz zamanı Azərbaycan haqqında ətraflı məlumatlar əldə edəcəyik. Bu gün Azərbaycan dünyada multikulturalizmi təbliğ edən əsas ölkələrdən biridir".

Yaponiyalı iştirakçı Taka Hiro Vatanabi bildirib: "Mən həmişə ədəbiyyatla maraqlanmışam, xüsusilə də Nizami Gəncəvinin əsərləri barədə məlumatım var. Mənim üçün daim maraqlı olub ki, Azərbaycanda multikulturalizm necə yaranıb. Mən bu qış məktəbində bu kimi suallarıma cavab tapacağam".

# "Azəri" yenə də neft verir və gəlir gətirir

Əvvəli 1-ci səh.

Belə deməyə onun ərazisinin böyüklüyü, karbohidrogen ehtiyatlarının zənginliyi, tikinti zamanı işə cəlb edilmiş insanların sayı və indiyədək gətirdiyi gəlirlər əsas verir.

Əslində, "Azəri" öz qoynunda üç yatağı birləşdirən kompleksdir. Onun mərkəzi, qərbi və şərqi hissələrinin hərəsi ayrıca bir yataqdır. Odur ki, AÇG-nin ehtiyatlarının xeyli hissəsi "Azəri"də yerləşir. Onu AÇG-nin şah damarı da adlandırırlar.

"Azəri"nin əhəmiyyəti həm də ondadır ki, ilk dəfə Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəmərinə məhz oradan çıxarılan neft vurulub. Ümumiyyətlə, "Azəri"dən ilk neftin alınması tarixi əhəmiyyət daşıyırdı.

2005-ci il fevralın 18-də "Mərkəzi Azəri" platformasında ilk neftin əldə olunması münasibətilə keçirilən təntənəli tədbirdə Prezident İlham Əliyev çıxış edərək demişdir: "Bu gün "Azəri" yatağından ilk neftin çıxarılması bir daha onu göstərir ki, qarşıya qoyulmuş bütün vəzifələr, planlar həyata keçirilir. Bütün çətinliklərə, maneələrə baxmayaraq, çətin geosiyasi vəziyyətdə Azərbaycan Xəzər dənizinin özünə məxsus olan sektorunda uğurla işləyibdir, qarşıda duran bütün vəzifələr həyatda öz əksini tapıbdır".

Xatırladaq ki, AÇG layihəsində əməliyyatçı olan BP (Böyük Britaniya), SOCAR (Azərbaycan), "Şevron" (ABŞ), "İnpeks" (Yaponiya), "Ekvinor" (Norveç), "EksonMobil" (ABŞ), TPAO (Türkiyə), "İtoçu" (Yaponiya), OVL (Hindistan) şirkətləri iştirak edirlər. AÇG çərçivəsində ilk neft 1997-ci ilin noyabrında "Çıraq" platformasından alınıb. Bundan sonra neft verən ikinci platforma "Mərkəzi Azəri" olub. "Qərbi Azəri"də neft hasilatına 2006-cı ilin əvvəlində, "Şərqi Azəri"də isə həmin ilin sonunda başlanıb. 2008-ci ilin aprel ayında "Dərinsulu Günəşli" və 2014-cü ilin əvvəlində "Qərbi Çıraq" platformaları da neft verib. Beləliklə, indi AÇG müqavilə sahəsində 8 platforma istismar olunur ki, bunların da 6-sı hasilat platformasıdır.

AÇG-nin bütün platformaları kimi, "Azəri"nin qurğuları da ölkə daxilində inşa edilib. Yataqdakı hasilat platformaları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda tikilib. "Mərkəzi Azəri"dəki Kompressor və Suvurma Platformasının (KvəSP) göyərtəsi Bakının Bibiheybət ərazisindəki ATA ("AMEK-Tekfen-Azfen") tikinti-quraşdırma sahəsində inşa edilib. KvəSP "Azəri"nin qərb və şərq hissələrinə də qaz və suvurma əməliyyatları, elektrik təchizatı ilə bağlı xidmətlər göstərir.

"Azəri"nin neftini və səmt qazını Səngəçal terminalına çatdırmaq üçün dənizdə ümumi uzunluğu 600 kilometrdən çox olan sualtı borular çəkilib. Terminalda həmin karbohidrogenləri ilkin emal edib müvafiq kəmərlərə vurmaq üçün geniş infrastruktur yaradılıb.

"Azəri"dən çıxarılan neft Səngəçala 30 düymlük sualtı borularla çatdırılır. Yataqda hasil olunan qazın bir hissəsi laylardakı təzyiqi saxlamaq üçün və yanacaq kimi platformalarda istifadə olunur. Qalan hissəsi 28 düymlük sualtı xətlərlə terminaldakı texnoloji emal qurğularına nəql edilir və buradan ölkənin daxili istifadəsi üçün "Azəriqaz" şəbəkəsinə ötürülür.

Azərbaycanın həyata keçirdiyi digər neft-qaz layihələri kimi "Azəri" də ölkənin böyük həcmdə valyuta ehtiyatları əldə etməsinə imkan verdi. Dövlət bu ehtiyatlardan səmərəli istifadə edərək onları ölkənin əsas inkişaf istiqamətlərinə yönəltdi. Beləliklə, Azərbaycanın iqtisadi inkişafı təmin edildi. İnsanların rifah halı yüksəldi. Eyni zamanda, çoxsaylı infrastruktur layihələri icra edildi, sosial məsələlər öz həllini tapdı. Bunlara xərclənən vəsaitlərin xeyli hissəsi məhz "Azəri"nin 14 il əvvəl hasil olunmağa başlayan neftindən əldə edilən gəlirlərdən yaranmışdır.

2017-ci ilin sentyabrında AÇG üzrə yeni müqavilənin imzalanması "Azəri"nin də "ömrünü uzadıb". Bu isə yeni neft həcmləri və yeni gəlirlər deməkdir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Azərbaycanın Rusiyadakı səfirliyi: "Feyk xəbərlərə və təxribat xarakterli bəyanatlara inanmamağı təkidlə xahiş edirik"

Fevralın 16-da Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun, Azərbaycan Daxili İşlər Nazirliyinin nümayəndəsi, polis general-mayoru Əkbər Yusifovun bu ölkədə baş vermiş və geniş əks-səda doğurmuş insidentlərlə əlaqədar olaraq Rusiya Daxili İşlər Nazirliyinin Moskva şəhəri üzrə Baş İdarəsinin rəisi, polis general-leytenantı Oleq Baranovla görüşü olub.

Azərbaycanın Rusiyadakı səfirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi aparılıb, münaqişənin eskalasiyasının qarşısının alınması üzrə tədbirlər müzakirə edilib. Səfir Polad Bülbüloğlu Azərbaycan və çeçen xalqlarını birləşdirən dostluq və mehriban qonşuluq münasibətləri, çoxmillətli Moskva məkanında belə insidentlərin yolverilməzliyi, onların böyüyərək idarə oluna bilməyən həddə çatmasının qarşısının alınması üçün təxirəsalınmaz addımlar tələb olunduğu barədə Rusiya DİN-in Baş İdarə rəisini məlumatlandırıb. General-leytenant Oleq Baranov bildirib ki, hər iki insidentə dair operativ iş aparılır, o cümlədən Moskvada "Neolit" kafesinə hücum faktı üzrə yaxın saatlarda ittihamlar irəli sürüləcək, habelə taksi sürücüsünün qətli ilə əlaqədar intensiv araşdırma aparılır, cinayətkarların şəxsiyyəti müəyyən ediləcək.

Hər iki iş məhkəməyə veriləcək və ictimaiyyət bu barədə məlumatlandırılacaq. Oleq Baranov Polad Bülbüloğlunu əmin edib ki, vəziyyət tam nəzarətə götürülüb və bütün zəruri tədbirlər görüləcək.

Görüşdə bildirilib ki, internetdə 4-6 nəfərin həlak olması barədə informasiya yayılır. Bu informasiya həqiqətə uyğun deyil. Sosial şəbəkələrdə yayılan və yalnız bir məqsəd - düşmənçilik və ədavət mühitinin yaradılması məqsədini güdən belə provokasiyaların təsiri altına düşməmək xahişi təkidlə səslənib.

Dünən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov bəyanat verib. O bildirib ki, bu insident Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan və tarixin bütün sınaqlarından layiqincə çıxan dostluq və qardaşlıq münasibətlərinə ziyan vura bilməz.

Səfir Polad Bülbüloğlu bu məsələnin həllinə bilavasitə cəlb olunmuş azərbaycanlılarla bir sıra görüşlər keçirib. Bununla əlaqədar olaraq səfirlik jurnalistlərə, habelə bu məsələdə düzgün mövqe tutmuş bütün şəxslərə təşəkkür edir.

Səfirliyin məlumatında deyilir: "Feyk xəbərlərə və təxribat xarakterli bəyanatlara inanmamağı təkidlə xahiş edirik. Səfirlik bu problemlə bilavasitə məşğul olur və ictimaiyyəti hadisələrin sonrakı gedişatı barədə məlumatlandıracaq".

# Dmitri SAVELYEV: "Bu insident Rusiya-Azərbaycan dostluq münasibətlərinin inkişafı tempinin yavaşlamasında maraqlı olan şəxslərin təxribatıdır"

Rusiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri, Dövlət Dumasının deputatı Dmitri Savelyev Moskvada azərbaycanlılar və çeçenlər arasında səs-küyə səbəb olmuş hadisəyə birmənalı qiymət verib: "Bu insident Rusiya-Azərbaycan dostluq münasibətlərinin inkişafı tempinin yavaşlamasında maraqlı olan şəxslərin təxribatıdır".

AZƏRTAC xəbər verir ki, D.Savelyev jurnalistlərlə söhbətində deyib: "Rusiya Federasiyası, o cümlədən onun tərkibinə daxil olan Çeçenistan Respublikası üçün Azərbaycanla münasibətlər strateji xarakter daşıyır və ölkələrimiz arasında dostluq əlaqələri ildən-ilə möhkəmlənir. Xatırladıram ki, 2018-ci il bu mənada iqtisadiyyat, siyasət və mədəniyyətdə bütün göstəricilər üzrə rekord ili olub. Ötən il əsrin dörddə biri ərzində müzakirə olunan Xəzər dənizinin statusunun, nəhayət ki, müəyyən edilməsini xatırlatmaq kifayətdir. Dövlətlərimizin liderlərinin müəyyən etdikləri əlaqələrin inkişafı kursunun üfüqi müstəvidə, insani münasibətlər səviyyəsində tamamilə dəstəklənməsi və məhz regionların hesabına Rusiya və Azərbaycan arasında çoxəsrlik qardaşlıq əlaqələrinin möhkəmlənməsi də böyük əhəmiyyət kəsb edir. Azərbaycanla Çeçenistanın çoxşaxəli əlaqələri isə iqtisadi sahədə Rusiya-Azərbaycan birgə layihələrinin inkişafının perspektivli istiqamətlərindən biridir.

Şəksizdir ki, ölkələrimizin mövqelərinin güclənməsi üçüncü qüvvələri narahat edir. Həmin epizodun KİV-də bu cür əks-səda doğurması məhz onların təsirinin nəticəsidir. Şübhə yoxdur ki, həmin insidentin hüquq mühafizə orqanları tərəfindən təhqiqatına ehtiyac var. Eyni zamanda, hökumətlərarası strukturlar bu epizodun KİV-də bu qədər şişirdilməsinin səbəbini araşdırmalıdır".

# Talassemiyalı xəstələrə göstərilən tibbi xidmətin səviyyəsi yüksəldilir

Fevralın 16-da Lənkəran şəhərində Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və Talassemiya Mərkəzinin birgə təşkilatçılığı ilə "Talassemiyasız həyat naminə" dördüncü regional elmi simpozium keçirilib.





Tədbirdə Astara, Lənkəran, Lerik, Masallı, Cəlilabad, Yardımlı və Biləsuvar rayonlarının səhiyyə işçiləri, talassemiya daşıyıcısı olan ailələrdən nümayəndələr, həmçinin QHT və KİV-in təmsilçiləri, təhsil işçiləri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, toplantıda çıxış edən Talassemiya Mərkəzinin direktoru Valeh Hüseynov ölkəmizdə səhiyyə sahəsində əldə olunan nailiyyətlər haqqında danışaraq Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan və 10 il əvvəl istifadəyə verilən Talassemiya Mərkəzinin fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, talassemiyalı xəstələrə göstərilən tibbi xidmətin təkmilləşdirilməsi istiqamətində aparılan islahatlar, maddi-texniki bazanın gücləndirilməsi bu xəstəliyin müalicəsində və profilaktikasında mühüm rol oynayır. Diqqətə çatdırılıb ki, hazırda ölkəmizin cənub bölgəsinin Lənkəran, Astara, Lerik, Masallı, Cəlilabad, Yardımlı, Biləsuvar rayonlarından olan 233 nəfər xəstə Talassemiya Mərkəzində qeydiyyatdadır.

Tədbirdə, həmçinin Talassemiya Mərkəzi və "Regional İnkişaf" İctimai Birliyinin birgə layihələri, respublikanın müxtəlif regionlarında keçirilən maarifləndirici tədbir və ödənişsiz tibbi müayinələr barədə məlumat verilib.

Simpozium çərçivəsində elmi sessiyalar təşkil olunub.

"Talassemiya: müasir yanaşma" mövzusunda keçirilən birinci sessiyada talassemiyanın müalicə və diaqnostikası, onun qarşısının alınması yolları, bu sahədə mərkəzin təcrübələri barədə danışılıb.

"Talassemiya: diaqnostika və monitorinq" mövzusunda keçirilən ikinci sessiyada isə xəstəliyin laborator və prenatal diaqnozu, infeksion və kardiak ağırlaşmalar, həmçinin psixososial problemlərə dair məruzələr ətrafında müzakirələr aparılıb.

Simpoziumda Talassemiya Mərkəzinin aparıcı hematoloqlarının "Talassemiyanın radikal müalicəsində sümük iliyi transplantasiyası", "Talassemiya daşıyıcılığı: talassemiyasız həyat naminə nə etməliyik", "Talassemiya xəstəliyi zamanı kardioloji, endokrinoloji və infeksion fəsadlaşmalar" və digər mövzularda məruzələri dinlənilib.

Sonda iştirakçılara sertifikatlar təqdim olunub. Sonra Talassemiya Mərkəzinin mütəxəssisləri Lənkəran Mərkəzi Rayon Xəstəxanasında talassemiyalı xəstələrin müalicəsi üzrə kabinetlərin işi ilə tanış olublar. Xəstəxanada talassemiya daşıyıcılığını müəyyən etmək məqsədilə 300-dən çox sakinin ödənişsiz tibbi müayinələri təşkil olunub.

Qeyd edək ki, bütün regionları əhatə edəcək tədbirlərdən sonra sonuncu simpozium mayın 22-24-də Bakı şəhərində Talassemiya Mərkəzinin fəaliyyətə başlamasının 10 illiyinə həsr olunmuş "Birinci Azərbaycan Beynəlxalq Hematologiya Mütəxəssisləri Konqresi" çərçivəsində keçiriləcək.

# Əddis-Əbəbə Universitetinin kitabxanasına Xocalı soyqırımına, ölkəmizin tarixi və mədəniyyətinə dair kitablar təqdim edilib

Efiopiyanın və ümumiyyətlə, Şərqi Afrikanın ən böyük universitetlərindən biri hesab olunan Əddis-Əbəbə Universitetinin C.Kennedi adına kitabxanasına Azərbaycan Respublikasının Əddis-Əbəbədəki səfirliyi tərəfindən Xocalı soyqırımı, eləcə də ölkəmizin tarixi və mədəniyyəti barədə kitablar təqdim edilib.

AZƏRTAC xəbər verir ki, səfir Elman Abdullayev kitabxananın müdiri Mesfin Gezahegn Abera ilə görüşdə ölkəmizin müstəqilliyinin bərpasından başlayaraq bugünədək keçdiyi tarix barədə məlumat verib. O, 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələrinin Xocalı şəhərinin dinc sakinlərinə qarşı soyqırımı törətdiklərini vurğulayıb. Kitabxananın müdiri M.G.Abera Azərbaycan səfirliyinin təqdim etdiyi bu kitabların ölkəmiz haqqında önəmli məlumatları öyrənmək baxımından həm Efiopiyanın, həm də universitetdə təhsil alan digər Afrika ölkələrinin tələbələri üçün mühüm əhəmiyyət kəsb edəcəyini bildirib. O, bu kitabların yaxın zamanda artıq 1 milyon 200 min kitabın yerləşdirildiyi universitetin elektron kitabxanasına yüklənəcəyini və tələbələrin həm kitabxana, həm də internet vasitəsilə bu kitablarla tanış olmaq imkanını əldə edəcəklərini söyləyib.

# Bakıda batut gimnastikası və tamblinq üzrə Dünya Kuboku yarışlarının açılış mərasimi olub



Fevralın 16-da Bakıda batut gimnastikası və tamblinq üzrə Dünya Kuboku turnirinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Milli Gimnastika Arenasında (MGA) keçirilən açılış mərasimində əvvəlcə iştirakçı ölkələrin - Azərbaycan, Avstraliya, Almaniya, ABŞ, Belarus, Bolqarıstan, Braziliya, Böyük Britaniya, Əlcəzair, Kanada, Çin, Çexiya, Danimarka, Fransa, Gürcüstan, Yunanıstan, İtaliya, İspaniya, İsveç, İsveçrə, Yaponiya, Qazaxıstan, Meksika, Yeni Zelandiya, Polşa, Portuqaliya, Rusiya, Türkiyə, Ukrayna və Özbəkistanın dövlət bayraqları arenaya gətirilib.

Açılış mərasimində çıxış edən Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov ölkəmizdə daha bir idman bayramının start götürdüyünü vurğulayaraq dünyanın ən güclü gimnastlarının Bakıda toplaşdıqlarını bildirib. Azərbaycanın idmanın bütün növləri üzrə mötəbər yarışları ən yüksək səviyyədə keçirməyə qadir olduğunu qeyd edən nazir müavini bu baxımdan I Avropa, IV İslam Həmrəyliyi oyunlarını, "Formula-1" yarışlarını və digər mühüm turnirləri diqqətə çatdırıb. O, bu il də Azərbaycanda mühüm yarışların keçiriləcəyini bildirib. İ.İsmayılov batut gimnastikası və tamblinq üzrə Dünya Kuboku turnirinin ölkəmizdə yüksək səviyyədə təşkil olunduğunu və atletlərin, eləcə də azarkeşlərin əsl idman bayramının şahidi olacaqlarına əminliyini ifadə edib.

Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib və yarışlar açıq elan edilib.

Dünya Kuboku yarışlarında 30 ölkədən 160-dan çox gimnast mübarizə aparır. Yarışlar 2020-ci ildə Tokioda keçiriləcək XXXII Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyır.

Mötəbər turnirdə Azərbaycanı beş idmançı təmsil edir. Qadınlar arasında batut yarışlarında fərdi proqramda sonuncu Avropa çempionatının gümüş medalçısı Veronika Zemlyanaya, kişilər arasında sinxron və fərdi proqramlarda Ruslan Ağamirov, İlya Qrişunin, Oleq Piunov, eləcə də tamblinqdə Avropa çempionu Mixail Malkin mübarizə aparırlar.

İki gün davam edəcək yarışların birinci günündə təsnifat mərhələləri, ikinci gündə isə saat 12:00-dan etibarən final mərhələləri keçiriləcək.

İmadəddin Nəsimi - 650

# "Son səfər"in təəssüratları



**Azərbaycan ədəbi-ictimai fikri tarixində çox mühüm yer tutan, təsəvvüf dünyagörüşünün ən böyük fəlsəfi- estetik interpretatorlarından biri olmaqla öz əqidəsi yolunda təsəvvürə çətin gələn məhrumiyyətlərə məruz qalmış İmadəddin Nəsiminin şəxsiyyəti, həyatı, yaradıcılığı barədə onu yetirən xalq çox gec - təxminən beş yüz il sonra geniş məlumat əldə etsə də, dahi Mücahid (və Şəhidin) ümumi (mücərrəd) obrazı nəinki xalqın yaddaşından çıxmamış, zaman-zaman sxolastik ehkamlara qarşı çıxan həqiqət axtarıcılarına sözün böyük (və üsyankar!) mənasında ilham vermişdir.**

Salman Mümtazın "Azərbaycan şairlərindən Nəsimi" məqaləsi ilə Azərbaycana qaytarılan şair-mütəfəkkir haqqında Həmid Araslı, Cahangir Qəhrəmanov, Mirzağa Quluzadə, Həmid Məmmədzadə, Zümrüd Quluzadə, Qəzənfər Paşayev... kimi görkəmli tədqiqatçıların əsərləri meydana çıxdıqca xalq öz dahi oğlunu daha yaxından tanımağa başlamış, 1973-cü ildə ulu öndər Heydər Əliyevin bilavasitə rəhbərliyilə keçirilən 600 illik yubileyi isə İmadəddin Nəsimi barədəki milli təsəvvürə fundamental miqyas vermiş, xalq şairi Qabilin "Nəsimi" poeması, xalq yazıçısı İsa Hüseynovun (Muğannanın) "Məhşər" romanı, eləcə də "Nəsimi" filmi bu miqyası bədii təfəkkürün qüdrətilə zənginləşdirmişdir.

Lakin çoxdandı ki, Nəsimi haqqında diqqəti cəlb edən bir əsər yazılmırdı. Və görkəmli yazıçı Hüseynbala Mirələmovun "Son səfər" povesti, fikrimizcə, həmin boşluğu müəyyən qədər aradan qaldırmış oldu. Yalnız ona görə yox ki, dahi şəxsiyyət ədəbiyyatda bir daha "yad edildi", daha çox ona görə ki, Nəsimiyə tamamilə yeni ideya-estetik mövqedən baxmaq təşəbbüsü özünü göstərdi.

Bu günlərdə "Azərbaycan" qəzetində "Son səfər" povestini hissələrlə oxumaq imkanı əldə etdik. Hüseynbala Mirələmovun Nəsimisi nə Qabilin, nə də İsa Hüseynovun (Muğannanın) Nəsimisi deyil. "Son səfər" müəllifi geniş panoramlı təsvirlərə, yaxud dövrün Nəsimidə təcəssüm edən mürəkkəb fəlsəfi-ideoloji özünüifadə (və özünütəsdiq) mükalimələrinə (bu xüsusiyyətlər həm "Nəsimi", həm də xüsusilə "Məhşər" üçün səciyyəvi idi) varmadan şair-mütəfəkkirin taleyinə, əgər belə demək mümkünsə, adi bir insan olaraq nəzər salmağın təcrübəsini təqdim edir... Uzaq yolların yolçuluğundan "yorulub" vətəni Şirvana - Şamaxıya qayıdan şairlər şairi burada cəmi- cümlətanı bir neçə ay qala bilir. İdeya (və sənət!) düşmənləri onu elə ikrahedici bir paxıllıqla qarşılayırlar ki, hətta Şirvanşah İbrahimin xoş münasibəti, himayəsi də şairlər şairinin Şirvanda, ümumən Azərbaycanda yaşama arzusunu gerçəkləşdirməyə imkan vermir. Lakin şair öz ilk məhəbbətinə - Hüsniyyəyə qovuşmaqla təsəlli tapmış olur...

"1409- cu ilin yazı idi. Şairlər şairi Seyid Əli İmadəddin Nəsimi ölkə- ölkə dolaşmaqdan - məscid, karvansara və xanəgahlarda gecələməkdən, dərviş, abid, imam, şair və səyyahlarla söhbət eləməkdən yorulub, doğma Şamaxıya qayıdırdı. O, artıq belə qərara gəlmişdi ki, ömrünün yerdə qalanını ata yurdunda - kiçik qardaşı Şahxəndanla bir yerdə keçirsin..."

Yazıçı hadisələri bir nağıl təhkiyəsi sürətilə təsvir etsə də, hərdən müxtəsər təfsilatlara da diqqət yetirib şairlər şairinin tərcümeyi- halının zəruri detallarına varır:

"Seyid Əli hələ mədrəsədə oxuyarkən Hüsniyyə adında bir qıza aşiq olmuşdu, amma uzaqdan- uzağa, gizlin. Qəlbini aça, eşqini dilə gətirə bilməyən şair öz şeirlərində sevgilisini vəsf edir, ah çəkir, fəryad qoparır, hicr odunda alışıb yanır. Amma çox çəkmir ki, onun eşqlə süslənən könül bağçasını xəzan vurur...

Seyid Əlinin məhəbbətindən bixəbər olan Hüsniyyə on altı yaşında ikən valideynləri tərəfindən mədrəsədən uzaqlaşdırılır, qəti istəməsə də, zorla bir müsəllimə ərə verilir. Amma o, Seyid Əlinin qəlbində elə kök salır, elə fəsli-yaz yaradır ki, daha orada bir başqası üçün yer qalmır. Şairin bütün fikri- zikri, xəyalı və xoşbəxtliyi məhz bu sevgi ilə pərvəriş tapır".

Nəsimini Şirvana qaytarıb gətirən qüvvələrin biri də bu eşq olur. Və onu "göylər"dən "yer"ə endirən həmin eşq gerçəkliyi povestdə, çox önəmlidir ki, şair- mütəfəkkirin haqqındakı ülvi təsəvvürləri zədələmədən, məişət münasibətləri prozaikliyinə endirmədən təsvir olunmuşdur. Müəllif bütün əsər boyu zərif eyhamlarla hiss etdirir (və nəticə etibarilə, əsərin əsas motivlərindən birinə çevirə bilir) ki, şair-mütəfəkkirin ən adi hərəkətlərində də qeyri-adi dünyagörüşünün (və istedadının) hikməti var...

Nəsimi Şamaxıya gəldiyi ilk gecə kiçik qardaşı Şahxəndanın yiyə durduğu evlərini daşa basırlar...

"Evlərinin daşa basılması təzə hadisə deyildi. Artıq neçə müddət idi ki, məhəllə uşaqları, nəinki gecələr, hətta gündüzlər də onu rahat buraxmır, "kafir", "kafirin qardaşı" deyib sataşır, hətta təklikdə yaxalayanda döymək də istəyirdilər. Səbəb isə, əlbəttə, qardaşının yazdığı şeirlər idi. Qəribədir, bu qəzəllər, qəsidələr, qitələr onların həm çörəyi, həm də qınaq yeri idi".

Şahxəndanla Nəsiminin söhbətləri, bir tərəfdən, iki qardaşın adi məişət əhvalpürsanlığıdırsa, digər tərəfdən, kifayət qədər ciddi mətləblərin mahiyyətini aşan mükalimələrdir...

"Şahxəndan dedi:

- Dadaş, mən sənə görə qorxuram, özümə görə yox... Əslində mənimlə heç işi olan da yoxdur. Məhəllə uşaqlarıdı, hərdən sataşırlar, onları da dayı oğlunun adı ilə qorxudub qaçırdıram. Mənim bütün narahatlığım sənə görədir. Çünki məni yox - mən kiməm ki - səni kafir hesab edirlər. Mən bilirəm sən kafir deyilsən, camaat isə bilmir. Nə vaxtsa, kimsə ordaburda ağzından qaçırıb ki, sən kafirsən, odurbudur düşmüsən ağızlara. Qəzəllərin, qəsidələrin də o qədər qəliz, fikirlərin o qədər qarmaqarışıqdı ki, avam camaat oxuyub heç nə başa düşmür. Başa düşməyəndə də, deyir ki, bu elə kafirdi ki, kafir!

Onlar astadan söhbət eləyə- eləyə evlərinin yolunu tutmuşdular. Şairlər şairi gülümsəyib dedi:

- Balası, sən lap böyük adamlar kimi danışırsan.

Şahxəndan güldü.

- Məni sənin yazdıqların, bir də dönə- dönə üzünü köçürdüyüm Qurani-Kərim belə vaxtından əvvəl böyütdü".

Vətənə döndükdən sonra şairin rastlaşdığı qaragüruh mühiti onu real təhlükələr qarşısında qoymaqla daha dərindən düşünməyə vadar edir...

"Seyid Əli İmadəddin Nəsimi nahardan sonra eyvanda - taxta çarpayıda uzanıb xəyallara daldı. Fikirləşdi ki, bugünkü hadisəyə necə əncam çəksin. O, həmişəlik gözəl vətəninə - Şirvana qayıdıb, evlənəcəyinə və ömrünün qalanını dost- aşna arasında keçirəcəyinə, yazıb- yaradacağına qərar vermişdi. Fəqət şirvanlıların, lap elə bakılıların da onun əleyhinə olduqlarını - düşməninə çevrildiklərini görüb sarsılmışdı. Sadəcə, qapdaşı qorxmasın deyə özünü saymazlığa vurmuşdu - guya ki, onlar fikir verməli şey deyilmiş. Əslində isə, məsələ çətin və qəliz idi. zarafat deyil, birdən- birə sənə "kafir" damğası vururlar, deməli, burada qala bilməzsən. Qara camaatın fikrini dəyişmək isə, elə də asan deyil".

Nəsiminin Şirvanşah İbrahimlə görüşləri, həm zamanın gərdişi, həm şeir- sənət, həm də şairin gələcək taleyi barəsindəki həsbi- halları povestdə istər tarixi həqiqətə sadiqlik, istərsə də ədəbi- bədii təxəyyülün inandırıcılığı baxımından maraq doğurur. Və Hüseynbala Mirələmovun müasir mövzularda yazan yazıçı olmaqla yanaşı, tarixi mövzularda qələm işlətmək təcrübəsi də "Son səfər"in yaradıcılıq- sənətkarlıq uğurunun təmin olunmasına az yardım etmir... Nəsimi öz dünyagörüşünün təbliğatçısı kimi nə qədər səmimidirsə, Şirvanşah İbrahim də sosial-siyasi şəraitin bütün ziddiyyətlərinə baxmayaraq, o qədər qərarlarında qəti, mövqeyində ardıcıldır. Lakin şair-mütəfəkkirlə müdrik dövlət xadiminin bir-birini anlaması belə hələ çıxış yolu deyil...

"Gözləri həmişə qıpqırmızı olan girdəsifət Bəhlulinin təklifi ilə Rəbiyyə xatun Qurani- Kərimi gətirib ortalığa qoydu və əlini kitaba basıb dedi:

- Bu Qurani-Kərimə and içirəm ki, bu sirri heç yerdə, heç kimə açmayacaq və İmadəddin Nəsimi adında kafərin ya sürgün, ya də qətl olunduğunu görməyincə, onu təqib etmək fikrindən dönməyəcəyəm.

Rəbiyyə xatundan sonra şair Bəhluli, şair Qulaməli, şair Qaim Şirvani, şair Əhməd Kəsirəddin, şair Tacəddin Şirvani, şair Mail Fədai, molla Ruxnəddin Xəlili, molla Seyid Məhəmməd, dəllək Nəsrəddin Zəbani, falçı Yusif Səbayi, lotu İsfəndiyar Qutluq növbə ilə bir-bir əllərini Qurani-Kərimə basıb, onun dediklərini təkrar etdilər".

Povestdə Nəsiminin "rəqib"ləri, tamamilə doğru olaraq, Şirvanşah İbrahimin də düşmənləri kimi təqdim olunur. Və sui-qəsdin qarşısı alınsa da, Şirvan (ümumən Azərbaycan) məhz qaragüruhun mənhus maraqları ucbatından öz dahi övladına sahib çıxa bilmir...

"Şamaxı narahat və həyəcanlı günlər yaşayırdı. Artıq neçə vaxt idi ki, Şamaxı və Bakı şairlərinin müraciətinə əsasən buraya Təbrizdən, Ərdəbildən, Zəncandan dəstə- dəstə adamlar gəlirdi. Həmin müraciətdə yazırdılar ki, əziz bəradərlərimiz, böyük yurdumuzun şair, qəzəlxan, mərsiyəxan və meyxanaçıları, neçə illərdi ki, Şamaxıda üzdəniraq bir şair peyda olub, öz kafir əşarı ilə nəinki müqəddəs dinimizə, hətta Allah və peyğəmbərimizə hədyanlar yazıb, hər yerdə xalqın ruhuna rəxnə salır..."

Öz tərəfdarlarını - özlərinə bənzəyənləri səfərbər edən qaragüruh şairi məhv edə bilməsə də, onun Azərbaycan hüdudlarını tərk eləməsinə nail olur.

Və konkret tarixlə başlayan əsər konkret tarixlə də başa çatır.

"1409-cu ilin avqust ayının onunda sübh çağı, o vaxt ki, hələ yol-iz aydın görünmür və yalnız məşriq səmasında üfüqin kiçik bir hissəsini ağ bir halə bürüyür, Şamaxının Seyidlər məhəlləsindən uzanan yolda iki dəvə kölgə kimi ağır-ağır uzaqlaşırdı...

Seyid Əli İmadəddin Nəsimi bu qədər dərdi, nisgili olmasına rəğmən xoşbəxt idi. Çünki ata ocağından, qardaşından ayrı düşsə də, xoşbəxtliyi insana bəxş edən dörd ünsürün dördü də onunla bir yerdə idi: sevgi, şöhrət, hörmət və nəhayət, Vətən!

Bəli, doğma Azərbaycan dilinin timsalında Vətən daim onunla idi..."

"Son səfər" povestində bir neçə ayın hadisələri barədə söhbət getsə də, şairlər şairinin obrazı kifayət qədər səciyyəvi cizgilərilə (və sənətkarlıqla) təsvir edilmiş, şair- mütəfəkkirin şəxsi həyatı ilə ictimai idealları arasındakı sarsılmaz əlaqə çox munis, səmimi, təbii münasibətlər kontekstində təqdim edilmişdir. Və nəticə etibarilə əminliklə demək olar ki, Hüseynbala Mirələmovun istedadlı qələmi Nəsimi haqqındakı təsəvvürlərimizi xeyli genişləndirən yeni bir ədəbi abidə yaratmaqla dahi şəxsiyyəti mənsub olduğu xalqa daha da yaxınlaşdırır, doğmalaşdırır.

***Nizami CƏFƏROV,***
***akademik***

---

# Sevgi çiçəyi

## Aşiqi-sadiq, əsir səhləb və Xarı bülbülün Şuşadan Gülablıyadək uzanan qəmli hekayəti...

**Ömrü çox qısadır...**
**Amma bu nakam ömrə bir dünya sığdırıb...**
**O, aşiqi-sadiqdir...**
**Gülün, bülbülün, xarın bir-birinə olan eşqinin üçlü simvolu, Xarı bülbül...**
**Xarı bülbül adi çiçək deyil, o bir möcüzədir. Başqa bir gül varmıdır ki, adı çəkiləndə ürəklərdə dağa çevrilmiş Qarabağ həsrəti bir daha göynəsin, vətən nisgilinin simvoluna dönsün...**
**Özü isə əsir çiçək olsun...**

### Bülbül, xar, çiçək...

Qarabağ işğal olunduqdan sonra itirdiklərimiz təkcə torpaqla, yurdla məhdudlaşmadı. Bu, həm də xalqımızın mədəniyyət, təbiət, sərvət itkisi oldu. Qarabağın hər bir guşəsi təbiətinin füsunkarlığı ilə insanı valeh edir. Bu torpağın adı gələndə yada düşənlərdən biri də çiçəklərin baş tacı olan Xarı bülbüldür...

Vətənimiz Azərbaycanın, Qarabağın, Şuşanın, Gülablı kəndinin çiçək rəmzi...

Qarabağ dağlarında Xarı bülbül adlanan qeyri-adi bir çiçək bitir. Çiçəyə bu ad bülbülə bənzədiyinə görə verilib... "Xar" sözü isə tikan mənasını verir, yəni "tikanlı bülbül"...

Ətri belə olmayan bu çiçəyin haqqında tam təsəvvürü ancaq onu görməklə əldə etmək olar. Xırda bənövşəyi rəngli ləçəkləri otların, başqa gül-çiçəklərin içərisində çox çətinliklə seçilir. Gülün üç ləçəyi olur, simmetrik quruluşuna görə aydınca görmək olur ki, gülün dörd ləçəyi olmalı imiş. Bu dördüncü ləçəyin yerində isə arıya bənzəyən, üstündə, cücülərdə, böcəklərdə olduğu kimi naxışları, məxmər kimi nazik tükcüklərlə örtülü bir böcək - xar var.

Belə bir təsəvvür yaranır ki, böcək gülün dördüncü ləçəyini yeyib, başını gülün ortasına qoyub və bunun üçün də böcəyin başı görünmür. Gülün düz ortasında isə sanki bir bülbül oturub. Bülbülün çiynində iki balaca ləçək var, gülün öz ləçəklərinin rəngindən bir azca tünddür və digər ləçəklərdən xeyli balacadır. Aydınca görünür ki, bu ləçəklər bülbülün qanadlarıdır. Hətta gülü əlinə alanda belə inanmırsan ki, bülbül də, gülün bir ləçəyinin yerində bitmiş arıya bənzər böcək də canlı deyil, sadəcə çiçəyin bir hissəsidir.

Xarı bülbül çiçəyi aprel ayının axırı - may ayının əvvəlində bitir, ömrü isə çox qısa olur, cəmi on beşiyirmi gün...

Xarı bülbül tək halda bitir və bir neçə Xarı bülbül çiçəyini bir yerdə görmək mümkün deyil.



### Həmişə başqa güllərə yuxarıdan baxıb...

Xarı bülbülün digər adı Qafqaz Qaş Səhləbidir. O, toxumla artan çoxillik bitkidir. Xarı bülbül Orxideyalar fəsiləsinə, Ofris (Ophrys lat.) cinsinə aiddir. Ofris səhləbkimilər fəsiləsinə aid bitki cinsidir. Ofris cinsinin 50-dən çox növü var və bunların bir çoxu Azərbaycanın müxtəlif bölgələrində, ümumiyyətlə Qafqaz, Zaqafqaziya ərazisində bitir. Digərləri isə Türkiyə, Yunanıstan, Krım və başqa ölkələrdə bitir. Bu bitkinin Azərbaycanda bitən bütün növləri Xarı bülbül adı ilə tanınır və latınca "ophrys caucasica" və ya "ophrys mammosa" adlanır. "Ophrys" yunan mənşəli sözdür, mənası qaş deməkdir.

Tədqiqatçı alimlər bu adı bitkiyə verməklə məcazi mənada bu gülün digərlərinə yuxarıdan aşağı baxmağını eyham ediblər. Səhləb fəsiləsinin bir çox nümayəndələri kimi ofrislər də kök toxumasında müştərək surətdə yaşayan və bitkiyə lazım olan simbiotik göbələklərdən asılıdır. Məhz bu səbəbdən həmin bitkiləri başqa yerdə əkmək olmur - çünki onlar məhv olur. Bu bitkilər nadir bitkilər hesab olunurlar. Onu da qeyd edək ki, onlar dövlət tərəfindən qorunurlar və Xarı bülbül və ofrislərin bir çox başqa növləri Qırmızı kitabda qeydə alınıblar.

### Gül bülbülü, xar isə gülü sevir...

Qarabağın Xarı bülbül çiçəyi haqqında dillərdə qırxa yaxın əfsanə və rəvayət dolaşır.

...Bir zamanlar bütün bitkilər insanlar kimi danışırmışlar, sevinib gülə bilirmişlər, hətta sevə bilirmişlər... Rəvayətə görə, bülbül çiçəyi sevir, bütün gül-çiçəklər də bu məhəbbəti hiss edirlər. Hər gün sübh tezdən bülbül çiçəyin üstünə qonub ona məhəbbət mahnısı oxuyarmış, gül-çiçəklər də bu nəğmənin təsirindən rəqs edər, şənlənərmiş. Amma xar belə bir şadyanalığa, sevgiyə, məhəbbətə dözə bilmir, qısqanclıqdan, paxıllıqdan az qalır bağrı çatlasın. Çiçəyi bülbüldən ayırmaq üçün gəlib ona öz ürəyini açır, sevgisini bildirir. Çiçək xarı rədd etməyə çalışır. Acıqlanan xar çiçəyin saplağı ilə yuxarı dırmaşır, onun bir ləçəyini yeyir. Bülbül gülün məhv olduğunu görüb fəryad qoparır. Bütün gül-çiçəklər də bu fəryada qoşulur. Lakin xarın daş qəlbi yumşalmır, yenə çiçəyi yeməkdə davam edir, onda hamı Allah-Təalaya yalvarır ki, onların canını alsın, amma çiçəklə bülbülün eşqinə, məhəbbətinə qıymasın. Bəli, onların ah-naləsi qəbul edilir. Beləliklə, hamısı sadəcə bitkiyə çevrilir. Çiçək, bülbül və xar - üçü bir çiçəyə çevrilirlər. O zaman ki, gül-çiçəklər fədakarlıq edib, canlarını bülbüllə çiçəyin eşqməhəbbətinə qurban vermişdilər, Xarı bülbül də çiçəyə söz vermişdi ki, bu fədakarlığa cavab olaraq yalnız onların bitkiyə çevrildikləri yerdə bitəcək. Belə də olur...

Xarı bülbülə çiçəklərin bitkiyə çevrildiyi Qarabağ torpağından başqa, dünyanın heç bir yerində rast gəlmək mümkün deyildir. Hətta ən məharətli bağbanlar da bu gülü başqa torpaqda yetişdirə bilmirlər...

### Vətən bağı al-əlvandı, yox içində Xarı bülbül...

Ağa Məhəmməd şah Qacar Şuşada qətlə yetiriləndən sonra İbrahimxəlil xan İranla münasibəti yoluna qoymaq üçün öz sevimli qızı Ağabəyim ağanı Fətəli şaha ərə verir. Ağabəyim ağa da ömrü boyu vətən həsrəti ilə yaşayır. Könül dərdlərini bayatı, qoşma və qəzəllərlə dilə gətirir.

Şah Ağabəyim ağanın qəlbi şad olsun deyə Qarabağdan torpaq, müxtəlif gül-çiçək kolları, meyvə ağacları gətirərək bağ saldırır. Hətta bağban da şuşalı olur. Bağın adını da "Vətən bağı" qoyurlar. Ağabəyim ağa bu gözəl bağçanı gəzərkən bütün gülləri, çiçəkləri özünəməxsus sevgi ilə oxşayıb, ürəyi atlanıb. Amma Şuşadan uzaqda xarı bülbülün bitməməsindən məyus olaraq dərdini belə dilə gətirir:

*"Vətən bağı" al-əlvandı,*
*Yox içində "Xarı bülbül"!*
*Ömür sürməli dövrandı,*
*Səsin gəlsin barı, bülbül...*

Xarı bülbül çiçəyi hətta Ağabəyim Ağa Ağabacının Vətən həsrətini, qəriblikdə çəkdiyi əzabları yüngülləşdirmək üçün də saldırdığı bağda da bitmir ki, bitmir...

### Gülablının yaylağında tapdım səni, Xarı bülbül...

Xarı bülbül haqqında maraqlı bir əhvalat da xalq şairi Mirvarid Dilbazi ilə bağlıdır. Şuşaya yaxın ərazidə yerləşən Ağdamın Gülablı kəndində də xarı bülbül bitirdi və şairə bura gələn zaman Gülablı qızları Qarabağın bu inci çiçəyini ona hədiyyə edirlər. Mirvarid Dilbazi isə şerində Xarı bülbülü belə tərənnüm edir...

*Çox gəzmişəm sorağında,*
*Doğma vətən torpağında.*
*Gülablının yaylağında*
*Tapdım səni, xarı bülbül.*
*Bizə bahardan hədiyyə,*
*Mən səni gec tapdım niyə!*
*Xarı bülbül deyə-deyə,*
*Ömrüm oldu yarı, bülbül.*
*Bu Gülablı qızlarının*
*Fəxri, iftixarı, bülbül!..*

Qeyd edək ki, Şuşada bu bitkinin əsas məskəni Cıdır düzü olub, Qızıl Qaya deyilən yerdə bitib. Gülablı kəndində isə bu çiçək Çıraqlı, Haçadağ, Damcı bulaq, Gülablı sanatoriyasının ərazisində bitir...

Xarı bülbül çiçəyindən həm də xalq təbabətində müxtəlif xəstəliklərin müalicəsində geniş istifadə edilir. Çiçəyin təsvirinə Azərbaycan xalçalarında da önəm verilib...

***Almara NƏBİYEVA,***
***filologiya üzrə fəlsəfə doktoru***

---

# Azərbaycan Niderlanddan necə görünür?

## Vüqar ABBASOV: "İnkişafımızın yolu təhsildən, düşməni yaxşı tanımaqdan, inteqrasiya və milli kimliyimizə bağlılıqdan keçir"

**◆ Azərbaycan diasporu**



*Diaspor fəaliyyəti Azərbaycanın dövlət siyasətinin prioritet istiqamətlərindəndir. Son illərin reallıqları ondan ibarətdir ki, Azərbaycan diasporu Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrdən irəli gələrək həm öz fəaliyyətini yeni mərhələyə yüksəldib, həm də xarici ölkələrin ictimai-siyasi həyatında fəallaşıb.*

*11 ildir Niderlandda yaşayan Vüqar Abbasov da Azərbaycanın bu ölkədə tanınması istiqamətində mühüm işlər görüb. Azərbaycanla Niderland Krallığı arasında qarşılıqlı hörmət prinsiplərinə əsaslanan dostluq əlaqələri var. Azərbaycan və Niderland Jurnalistlər Birliklərinin (AJB və NJB) üzvü olan və 2008-ci ildən ailəsi ilə birlikdə Niderlandda yaşayan Vüqar Abbasov diaspor fəaliyyətində gördüyü işlərdən söz açır.*

### Azərbaycanın təbliği üçün bacardığım qədər çalışıram

- 1974-cü ildə Beyləqan rayonunda anadan olmuşam. Qərb Universitetində politologiya ixtisası üzrə təhsil almışam. 1993-2008-ci illərdə Azərbaycan Dövlət Televiziyasında jurnalist işlədim. Hazırda Niderlandda Qaçqınlarla İş Üzrə İdarədə çalışır, eyni zamanda "Connect" təşkilatına sədrlik edirəm. Təşkilatı 2015-ci ildə həmkarım Vim van Embdenlə (Wim van Embden) birlikdə yaratdıq. Hədəfimiz Azərbaycanla Niderland arasında işgüzar əlaqələrin artmasına töhfə verməkdir. Ölkəmizi burada daha çox tanıtmaq və Ermənistanın işğalçılıq siyasətini, Xocalı soyqırımını yerli insanlara, eləcə də siyasət adamlarına çatdırmaq əsas hədəfimizdir. Həm də Azərbaycan və Niderland jurnalistlər birliyinin üzvüyəm. Birliyin üzvü olmaq mənə yerli siyasət adamları ilə görüşmək, onlardan müsahibələr almaq imkanı yaradır. Niderland parlamentinin deputatları, nazir, bələdiyyə başçıları, jurnalistlər və digər siyasilərlə görüşlərim olub. Yerli mətbuatda Azərbaycanla bağlı çoxsaylı məqalələrim dərc edilib.

Elə bu yaxınlarda yerli radiolardan birində qonaq oldum. Proqram canlı idi və bir saat çəkdi. Proqram boyunca həm Azərbaycandan, işğal olunmuş torpaqlarımızdan, turizm imkanlarımızdan danışdıq, həm də altı xalq musiqimiz səsləndirildi. Hesab edirəm ki, bu, Azərbaycanın təbliği üçün çox faydalı oldu. Xoş olan məqamlardan biri də o oldu ki, verilişdən öncə proqramın aparıcısı Cənubi Azərbaycandan olan soydaşımız Parisa Arslaninin ifasında "Sarı gəlin" mahnısını şəxsi "facebook" səhifəsində paylaşaraq növbəti proqramının Azərbaycana həsr olunacağını yazmışdı. Proqramdan sonra niderlandlı tanışlarım fikirlərini bölüşdülər. Bir neçə jurnalist dostumuz, elə aparıcı da Azərbaycanı görmək istədiklərini dilə gətirdilər. İmkanlaşdıra bilsəm, o jurnalistlərin ölkəmizə səfərlərini təşkil edəcəyəm.

### Niderland məsəli - "hər vaxt daha yaxşısı mümkündür"

- Niderlanddakı təşkilatların hər biri bacardıqları qədər fəaliyyət göstərməyə çalışırlar. Problemlər var və nə qədər yaxşı fəaliyyət olsa da, problemlər yenə də olacaq. Çünki iş olan yerdə çatışmazlıqlar da mütləq olmalıdır. Sadəcə olaraq bütün bunlara dözümlü yanaşmaq lazımdır. Niderlandlıların bir sözü var: "Hər vaxt daha yaxşısı mümkündür".

Düşünürəm ki, "ən yaxşı müdafiə hücumdur" misalı çox doğrudur və öz tərəfimdən bunu etməyə çalışıram. Heç vaxt gözləmirəm ki, erməni diasporu hansısa tədbir keçirəcək və mən sonra onlara cavab verim. İmkan etdiyim qədər qəzetlərdə, radioda çıxışlar etməyə çalışır, ikitərəfli və çoxtərəfli görüşlər keçirirəm. Erməni təşkilatlarının saytlarını mümkün qədər nəzarətdə saxlamağa çalışıram. Ən əsası isə çalışıram ki, haqlı olduğumuz məqamları niderlandlı dostlarıma, yerli insanlara onların dili ilə çatdıram.

2016-cı ildə həmkarım Vim van Embdenlə birlikdə Azərbaycanda Dünya Azərbaycanlılarının IV Qurultayında iştirak etmişdik. Azərbaycanı öz gözləri ilə görəndən sonra Vim ölkəmizlə bağlı daha çox danışmağa başladı. Məsələn, dəfələrlə yerli qəzetlərə müsahibələrində, radiolarda çıxışlarında Ermənistanın Azərbaycan torpaqlarını işğalından danışıb, Azərbaycan haqqında söz açıb. Müşahidələrimə görə, bu kimi addımlar daha effektiv təsir göstərə bilir. Odur ki, jurnalist dostlarımı da Azərbaycana gətirməkdə maraqlıyam. Qoy, öz gözləri ilə həqiqətlərimizi görsünlər və o zaman burada daha rahatlıqla sözlərini deyə bilərlər. Bunlar təşkilatımızın ermənilərə qarşı görmüş olduğu, görmək istədiyi işlərin bir hissəsidir.

İstədiyim odur ki, ölkəmiz sözün həqiqi mənasında qazansın. Çalışırıq ki, biz kimdənsə zəif olmayaq, elə diaspor kimi də. ABŞ-dakı erməni diasporu uzun bir yol keçdikdən sonra güclənib. Ermənilərin Amerikaya ilk köçü XX əsrin əvvəllərində olub, əsas fəaliyyətləri isə həmin əsrin yetmişinci illərindən başlayıb. ASALA-nı da həmin illərdə yaradıblar və ilk işləri də dünyadakı türk diplomatları qətlə yetirmək olub.

Güclənmək üçün zaman lazımdır, ancaq zamanı da boşuna xərcləməli, özümüzü aldatmalı deyilik. İyirminci əsrin əvvəllərinə kimi tarixdə erməni dövləti olmadığı üçün onlar hər yerdə, diaspor kimi yaşayıb, fəaliyyət göstəriblər. XIX əsrin əvvəllərində ABŞ-dan Osmanlıya gələn missionerlər ermənilərlə iş aparmağa başlayıblar və sözsüz ki, məqsədləri Osmanlıya, türkə qarşı düşmən hazırlamaq idi. Nəhayət, ilk erməni təşkilatı XIX əsrin səksəninci illərinin sonlarında yaradıldı. Onlar mübarizələrini hər zaman himayədarlarının dəstəyi ilə aparıblar. İndi biz birdən-birə, həm də təkbaşına gəlib erməni diasporuna çata bilmərik. Ancaq mübarizə aparmaq, güclənmək lazımdır. Üzeyir Hacıbəylinin dili ilə desək, birdən-birə fildən yapışmaq lazım deyil.

### Düşməninlə mübarizə aparmaq üçün onu yaxından tanımalısan

- Düşməninlə mübarizə aparmaq üçün onun fəaliyyəti ilə bağlı çox oxumalı, öyrənməli və onu yaxından tanımalısan. Çalışıram ki, barələrində məlumatları tapım, düşmənimizi daha yaxşı tanıyım. Çox istərdim ki, xaricdəki təşkilatlarımız bir-biriləri ilə yox, düşmənə qarşı mübarizə aparsınlar. Dost olmaq, birləşmək vacib deyil, yetər ki, qarşılıqlı münasibətlər gərgin olmasın.

Diaspor geniş anlayışdır. Hərə bunu bir cür anlayır. Tərəfdarıyam ki, diaspor fəaliyyətinə də bir qədər savadlı yanaşma olsun. Anım və tanıtım tədbirlərinin keçirilməsini, müxtəlif bayramlarımızın təşkilini əhəmiyyətli sayıram. Bu cür tədbirlər diaspor üzvləri arasında əlaqələrin möhkəmlənməsinə xidmət edir. Bir-birimizə qaynayıb-qarışmalıyıq. Fikir ayrılıqlarımız şəxsi münasibətlərə təsir etməməlidir. Əbu Turxanın bir sözü burada yerinə düşər: "Bütövləşmək əzmində olan yarımçıq dağılmaq ərəfəsində olan bütövdən daha dəyərlidir".

Güclənmək üçün tədbirlərlə paralel başqa işlər də görülməlidir. Məsələn, mətbuatla, müxtəlif institut və universitetlərlə, digər xalqların diaspor təşkilatları ilə və s. işləmək lazımdır. Ancaq bunları edərkən öz ölkən barədə yetərincə məlumatlı olmalısan.

*Azərbaycan diasporu ölkəmiz üçün strateji əhəmiyyət daşıyan ölkələrdə daha da güclənərsə, dövlətimizin xarici siyasətində uğurların əldə olunmasına öz töhfələrini verə bilər. Əminik ki, Vüqar Abbasovun timsalında digər təmsilçilərimiz də bundan sonra da Prezident İlham Əliyevin Azərbaycan diasporu qarşısında müəyyən etdiyi vəzifələrin həyata keçirilməsində layiqincə iştirak edəcək.*

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

Sağlamlığın keşiyində dayananlar

# Cavad Heyət ənənələrinin davamçısı

**Təbriz qədimdən şairləri, xəttatları, memarları, tarixi şəxsiyyətləri, el qəhrəmanları ilə yanaşı, təbibləri, loğmanları ilə də məşhurdur. Bu məşhurluq Təbrizlə Bakının, Şirvanın, Gəncənin, Naxçıvanın, bir sözlə o taylı-bu taylı Azərbaycanın ədəbiyyatına, mədəniyyətinə, incəsənətinə, tarixinə, memarlığına, insanların sağlamlığına və həyat tərzinin yüksəlməsinə yeni çalarlar qatır.**



Milli-mənəvi dəyərlərə sadiqliyi ilə fərqlənən xalqımız bütün bunları Azərbaycan 1991-ci ildə öz tarixi müstəqilliyinə qovuşduqdan sonra daha yaxından gördü və hiss etdi. Adi bir nümunə: Yaxşı tanıdığım, dünyaca məşhur cərrah-alim, İranda ilk dəfə açıq ürək əməliyyatını gerçəkləşdirən, Beynəlxalq Cərrahlar Cəmiyyəti İdarə Heyətinin üzvü, professor Cavad Heyət hələ sovetlər dönəmində Azərbaycana gələr, ona müraciət edən insanların şəfa tapmasına təmənnasız yardımçı olardı. Əvvəlcədən qəzetlərdə elan verməklə xüsusi qəbul günləri və vaxt təyin edərdi ki, insanlar heç nədən əziyyət çəkmədən onun qəbuluna düşə bilsinlər. Bununla da yüzlərlə xəstə doktor Cavad Heyətin müayinə və müalicəsi sayəsində yenidən fəal həyata qayıdardı.

Beş ilə yaxındır ki, o böyük insan həyatda olmasa da, Cavad Heyət missiyasını Təbrizdə davam etdirən təbiblər çoxdur. Onlardan biri də dünya şöhrətli professorun tələbəsi olmuş Əli Zadimanidir. O, 1993-cü ildə Təbriz Universitetinin tibb fakültəsini əla qiymətlərlə bitirib. Məşhur tibb professorları Cavad Heyətdən, Xəlil Vaizdən, Əmir Bəhramidən və digərlərindən dərs alıb, onların sevimli tələbələrindən olub. Universiteti bitirdikdən sonra ixtisası üzrə 2 ilə yaxın Kirmanda, daha sonra isə 4 il Sərdəri qəsəbəsində çalışıb. İndi də yerli camaat Əli həkimin xeyirxahlığından, təmənnasız yaxşılıqlarından ağızdolusu danışır, söyləyirlər ki, "Əli həkim buradan hərbi xidmətə yola düşəndə biz həmişə ona Allah-taaladan uğurlu qulluq və işlərində yüksəliş arzulayırdıq ki, təkrarən Sərəriyə qayıtsın".

Ə.Zadimani İranın Türkmənçay nahiyəsində 3 il hərbçi-həkim kimi vətənə xidmətdə olmuşdur. Bu zaman həm hərbiçi, həm də gənc həkim kimi üzərinə düşən vəzifənin öhdəsindən ləyaqətlə gəlmiş, komandanlıq tərəfindən verilən tapşırıqları vaxtında və yüksək keyfiyyətlə yerinə yetirmişdir. Həmçinin müqəddəs həkimlik sənətini inkişaf etdirmək üçün asudə vaxtlarında əlavə ədəbiyyatlar mütaliə etmiş, dünya tibb elmindəki yeniliklərlə maraqlanmışdır. Vətənə hərbi xidmət borcunu ləyaqətlə başa vurduqdan sonra qaynar və coşqun şəhər həyatını özündə ehtiva edən qədim Tehrana qayıtmışdır. Bu dəfə o, arzusunda olduğu təhsilartırma kursunun müdavimi olmuşdur. Burada 4 il ustadlardan dərs alan gənc həkim biliyini, savadını, dünyagörüşünü daha da artırır, ixtisasını təkmilləşdirir, nəhayət yenidən Təbrizə dönür. Bir müddət müxtəlif dövlət və özəl klinikalarda çalışır, bilik və bacarığı sayəsində böyük nüfuz sahibinə çevrilir. Əli Zadimani artıq 7 ildən çoxdur ki, Təbrizin məşhur şəfaxanalarından olan Behbud xəstəxanasında daxili xəstəliklər üzrə həkim kimi fəaliyyət göstərir.

Təbrizdə cümə və cümə axşamları istirahət günləri hesab edildiyindən həkimlər adətən işdə olmurlar. Amma bunu Əli Zadimaniyə şamil etmək olmaz. Son üç-dörd ildə mən oğlumu dəfələrlə Təbrizə, Behbud xəstəxanasına Əli həkimin yanına müayinəyə aparanda onun həmin günlərdə ya iş otağında, ya da qonşu korpusda xəstəyə baş çəkməyə getdiyinin şahidi olmuşam. Bu barədə söhbət düşəndə həkim belə dedi: "Mən əsl istirahəti xəstəmin sağalmasında tapıram. İş günüm olmasa da, xəstəxanaya gəlir, onlarla hal-əhval tuturam. Əgər xəstənin yanından xoşhal dönsəm, bu, mənim üçün ən böyük istirahət deməkdir. Yoxsa evdə rahat dayana bilmərəm".

Əli həkimin bir yaxşı xüsusiyyəti də var ki, xəstəxanaya Azərbaycandan gələn pasientlərinə xüsusi diqqət yetirməyi xoşlayır. "Onlar Bakıdan, Gəncədən, Qarabağdan və ya digər yerlərdən uzaq yol qət edib Təbrizə mənim ünvanımı ümid yeri bilib gəlirlərsə, mən onları əziz qonağım bilirəm, ikincisi də xəstədir, müayinəyə və müalicəyə ehtiyacı varsa, ona yüksək səviyyədə diqqət yetirirəm. Ermənilərin Xocalıya hücumu zamanı əlil və müəyyən xəstəliklərə düçar olmuş onlarla uşağa, qadın və kişiyə təmənnasız xidmət göstərmişəm. Bu gün də onların çoxu mənimlə əlaqə saxlayır", - deyir.

Xeyirxahlığına və peşəsinə olan sevgisinə görə Əli Zadimani milyonların rəğbətini qazanıb. İndiyədək dəfələrlə müxtəlif qurumlar tərəfindən yazılı və şifahi təşəkkürlərə, fəxri fərmanlara, digər mükafatlara layiq görülüb. O, özü belə hesab edir ki, mənim ən böyük mükafatım insanların sağlamlığı keşiyində ləyaqətlə dayanmaq, xalqın etimadını, sevgisini qazanmaqdır.

Xeyriyyəçi həkim ədəbiyyata, jurnalistikaya da böyük maraq göstərən ziyalıdır. Neçə illərdir ki, Təbriz radiosunda həftənin I, III, V günləri sübh çağı 7:40-da efirdə olan "Sağlam həyat" verilişinin təşkilatçısı və aparıcısıdır. Onun bu sahədəki faydalı məsləhətlərini, söhbətlərini o taylı-bu taylı azərbaycanlılar maraqla dinləyirlər. Təsadüfi deyil ki, sağlamlığı ilə əlaqədar Təbrizə yolu düşən hər kəs kimdən bir yaxşı həkimin adını soruşanda, istər-istəməz ilk növbədə Behbud xəstəxanasının daxili xəstəliklər üzrə həkimi Əli Zadimaninin adını çəkir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***




*Foto Ağaəli MƏMMƏDOVUNDUR*

## İllinoysda atışma: 5 nəfər öldü



ABŞ-ın İllinoys ştatının Avrora şəhərində baş vermiş atışma nəticəsində beş nəfər, o cümlədən hücum edən şəxs həlak olmuşdur. Bu barədə "CBS Chicago" telekanalı xəbər verir.

Məlumata görə, "Henry Pratt Company" firmasının əməkdaşı şirkətin binasında atəş açaraq dörd nəfəri öldürmüşdür. Hadisə yerinə gələn asayiş keşikçiləri cinayətkarı zərərsizləşdirmişlər. Əməliyyat zamanı beş polis zabiti yaralanmışdır.

# Beynəlxalq aləm

## Tramp büdcə qanununu imzaladı



ABŞ Prezidenti Donald Tramp büdcə qanununu imzalamışdır. Sənəd maliyyə ilinin sonunadək - sentyabrın 30-dək bütün nazirlik və idarələrin tamamilə maliyyələşdirilməsini nəzərdə tutur. Bu barədə Ağ ev məlumat vermişdir.

Bundan əvvəl Tramp Meksika ilə sərhəddə fövqəladə vəziyyət (FV) rejiminin tətbiqi barədə sənəd imzalamışdır. Ağ evin mətbut katibi Sara Sandersin dediyinə görə, FV milli təhlükəsizlik sahəsində və sərhəddə humanitar böhranın dayandırılması üçün tətbiq olunur.

"Assoşieyted Press" agentliyi xəbər verir ki, Tramp FV rejimini elan etməklə Konqresdən yan keçərək Meksika ilə sərhəddə divar inşasına vəsait yönəltməyi planlaşdırır. Prezident digər məsələlərin həlli üçün nəzərdə tutulmuş 8 milyard dollara yaxın vəsaitdən istifadə edə bilər.

## Madaqaskarda uşaqlar kütləvi şəkildə qızılcadan ölür

Ötən ilin oktyabrından bəri Madaqaskarda 922 uşaq qızılcadan vəfat etmişdir. Hazırda bu xəstəliyə yoluxanların sayı təxminən 66 min nəfərdir. Bu barədə Dünya Səhiyyə Təşkilatı məlumat vermişdir. "The İndependent" qəzeti yazır ki, həyata keçirilən təcili peyvəndləmə proqramı da ölüm hallarının qarşısını almağa kömək etmir. KİV-in xəbərinə görə, ölkə əhalisinin 58 faizi qızılcaya qarşı peyvəndlənmiş, lakin sakinlərdə bu infeksiyaya qarşı immunitet yaranmamışdır.

## Paris küçələrində 3600-dən çox evsiz yaşayır



Fransa paytaxtında 3600 nəfərdən çox adam küçələrdə yaşayır. Paris meriyasının məlumatına əsasən, 2232 nəfər küçədə, 751 nəfər dəmiryolu vağzalında, metro stansiyalarında, avtomobil dayanacaqlarında və digər qapalı ictimai yerlərdə gecələyir. Daha 639 nəfər meşələrdə və parklarda yaşayır.

Ötən il küçələrdə yaşayanların sayı təxminən 3 min nəfər idi.

Xeyriyyə təşkilatlarının bəyanatlarında vurğulanır ki, hökumət evsizlərə münasibətdə lazımi tədbirlər görmür və onlar üçün dərhal sığınacaq ayırmalıdır.

Ötən il müxtəlif səbəblərdən 18 evsiz vətəndaş vəfat etmişdir.

Xatırladaq ki, 2017-ci ilin yayında Fransa Prezidenti Emmanuel Makron ilin sonunadək Paris küçələrində evsiz adamların qalmayacağını vəd etmişdi.

## Livan parlamenti hökumətə etimad göstərdi

Livan hökuməti səs çoxluğu ilə parlamentin etimadını qazanmışdır. Bu barədə yerli "əl-Məyadin" telekanalı xəbər verir.

Məlumata görə, 128 deputat yeni hökumətin lehinə, 111 parlamentar isə əleyhinə səs vermişdir. Xatırladaq ki, ötən ayın 31-də Səəd Həriri 30 nazirdən ibarət hökumətin yeni tərkibinin formalaşdırdığını rəsmən bəyan etmişdir. Əvvəlki kabinetdən səkkiz nazir, o cümlədən xarici işlər naziri Cibran Basil kürsülərini qorumuşdur.

Hökumətin təşkil olmaması üzündən ötən ilin may ayından bəri ölkədə siyasi böhran davam edirdi.

# Erməni ordusunun real mənzərəsi:

# 1140 cinayət, 182 korrupsiya faktı və 2385 qanun pozuntusu

## İşğalçı ölkənin silahlı qüvvələrində anarxiya, özbaşınalıq və böyük xaos hökm sürür

*Əvvəli 1-ci səh.*

### Hərbi qulluqçu odlu silahla öldürülüb

Xatırladaq ki, yeni il gecəsi Ermənistan ordusunun müqaviləli hərbi qulluqçusu Edqar Qriqoryan odlu silah yarasından ölsə də, Müdafiə Nazirliyi və ya istintaq komitəsi bu barədə məlumat yaymayıb. İntihar həddinə çatdırma maddəsi üzrə cinayət işi açılıb. Edqar Qriqoryan 5 aydır müqaviləli hərbi xidmətə başlamışdı. Onun valideynləri isə intihar versiyasına inanmırlar. Qriqoryanın anası Alina Sarkisyan eyni vaxtda postda olan 8-9 nəfərin vicdanlarının susduğuna inana bilmədiyini deyərək, onların tez, ya gec cavab verəcəklərini bildirib.

Hərbi qulluqçunun anası onun aldığı xəsarətin döş qəfəsində olduğunu da qeyd etməklə, bu faktın da intihar hadisəsini inkar etdiyini, məsələ ilə bağlı hazırda istintaq orqanlarının məşğul olduğunu və hər şeyin üzə çıxacağına inandığını söyləyib.

Ermənistan müdafiə nazirinin çıxışı isə ölən hərbi qulluqçunun anasını hiddətləndirib: "Belə ki, müdafiə naziri qeyd edir ki, Edqar Qriqoryanın ölüm faktı hərbi xidmətlə əlaqəli deyil. O zaman sual yaranır: necə ola bilər ki, hərbi xidmətdə, postda olarkən baş verən ölüm hadisəsi xidmətlə əlaqəli olmasın? Müdafiə naziri qeyd edib ki, hərbi xidmətlə əlaqəli olmadığına görə bu fakta diqqət ayırmayıblar, indi kiçik bir xidməti araşdırma aparılır. Araşdırmadan sonra hadisənin başvermə səbəbi, xidmətlə əlaqəsi müəyyən ediləcək".

### Ordunun çöküşü sürətlənir

Hərbi hüquq sahəsində ixtisaslaşmış vəkil Norayr Norikyan bu faktın uzun müddət gizlədilməsinin ordudakı böyük cinayət şəbəkəsinin mövcudluğunu göstərən amil kimi qiymətləndirib: "Yeni il gecəsi odlu silah xəsarətlərindən ölən müqaviləli hərbi qulluqçu ilə bağlı baş vermiş fakt barədə məlumat verilməməsi səhlənkarlıq nəticəsi deyildir. Bu məsələdə hansı dövlət orqanının səhlənkarlığa yol verməsindən asılı olmayaraq, bu, hərtərəfli yönləndirilmiş və bundan irəli gələn nəticələrlə bağlı bir təlimat olub. Bir şey aydındır ki, bu kimi halların gizlədilməsi ictimaiyyət içərisində silahlı qüvvələrə, onun rəhbərliyinə qarşı şübhə toxumları yayır. Mən bunu yolverilməz davranış tərzi hesab edirəm". Onun sözlərinə görə, bu hərəkət tərzinin bir izahı var və o, iki və ya üç orqan tərəfindən eyni vaxtda yol verilən nöqsan ola bilməz.

Jurnalistin "Müdafiə Nazirliyinin bir sıra vəzifəli şəxsləri, informasiyaya cavabdeh olanları, həmçinin müdafiə naziri qeyd edib ki, hadisəni gizlətmək və ya ört-basdır etmək kimi bir niyyətləri yoxdur. Nazir qeyd edib ki, kiçik xidməti araşdırma təyin edilib. Kiçik xidməti araşdırma nə deməkdir və məgər bu böyük məsələnin cavabını verə bilər?" deyə verilən suala vəkil belə cavab verib: "Əvvəla kiçik və ya böyük xidməti araşdırmalar olmur. Bundan başqa, praktika göstərir ki, bu barədə hərbi hissə komandiri məlumat vermir. Müdafiə Nazirliyinin informasiya və ictimaiyyətlə əlaqələr idarəsi, yaxud istintaq komitəsinin mətbuat katibi müvafiq bəyanatla çıxış edir. Buna görə də hər hansı elmi tədqiqat fəaliyyəti açmaq və yaxud böyük, kiçik xidməti araşdırma aparmaq lazım deyildi. Problem bəyanatın açıqlanması tərzində deyil, hadisənin motivini gizlətmək kontekstindədir".

### Daha bir əsgər ürək çatışmazlığından ölüb

Bu arada daha bir qalmaqal əsgər Frunzik Valerioviç Tamazyanla bağlıdır. Xatırladaq ki, fevralın 12-də saat 18:00 radələrində işğal altında olan Qarabağın şimal-şərq istiqamətində dislokasiya olunan qanunsuz erməni hərbi birləşmələrindən birinin hərbi qulluqçusu, 2000-ci il təvəllüdlü Frunzik Valerioviç Tamazyan qaraciyər çatışmazlığı, kəskin ürək çatışmazlığı diaqnozu ilə olduqca ağır vəziyyətdə Ağdərədəki hərbi hospitala təxliyyə edilib. Həkimlərin səylərinə baxmayaraq, saat 20:30 radələrində hərbi qulluqçu ölüb.

Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Artsrun Ovhannisyanın da məsələyə münasibəti olduqca maraqlıdır: "Əsgərin orduya sağlam gedib-getmədiyini komissiyadan öncə dəyərləndirə bilmərəm".

Erməni jurnalist Artsrun Ovhannisyana "Necə olub ki, bu hərbi qulluqçu orduya çağırılıb" deyə sual edib. Ovhannisyan cavabında qeyd edib: "Mən indi necə olduğunu deyə bilmərəm, bunun üçün komissiya var. Komissiya öz rəyini verəcək. O zaman doğru, ya səhv olduğumuza qərar verərik".

### 863 min dollarlıq ziyan

Belə faktların çoxluğu fonunda aydın görünür ki, ölkədə ordunun çöküşü əvvəlki dinamika ilə davam edir. Bunu hətta müvafiq rəsmi dairələr də təsdiq edir. Belə ki, Ermənistanın hərbi prokuroru Vaqe Arutyunyan 2018-ci ildə hüquq mühafizə orqanlarının silahlı qüvvələrdə cinayətkarlıqla mübarizə üzrə hesabatını təqdim edərkən qeyd olunan xüsusda çox maraqlı məqamlar açıqlayıb.

O bildirir ki, 2018-ci ildə Ermənistan silahlı qüvvələrində 3525 fövqəladə hadisə qeydə alınıb. Onlardan 2385-i (66,9 faizi) qanun pozuntusu, 1140-ı (36,2 faizi) isə cinayətdir.

Arutyunyanın sözlərinə görə, ötən il Ermənistan ordusunda ağır cinayətlərin sayı 8,1 faiz artıb. Xüsusilə ağır cinayət hadisələrinin sayı 43 fakt təşkil edib. Bu cinayətlərin içərisində hərbçilərin öz xidməti yoldaşına atəş açaraq qətlə yetirməsi və mülki şəxsin hərbçini öldürməsi halları da var.

Ermənistanın hərbi prokuroru bildirib ki, ötən il hərbi qulluqçuların bir-birinə qarşı müxtəlif bədən xəsarətləri yetirməsinə dair ümumilikdə 1173 hal qeydə alınıb. Ağır xəsarət alan hərbçilərin sayı isə 54 olub. Hərbi prokurorluğun hesabatına əsasən, 2018-ci ildə Ermənistan silahlı qüvvələrində 182 korrupsiya faktı qeydə alınıb ki, bu da 2017-ci illə müqayisədə 66 faiz çoxdur. Həmin korrupsiya faktları üzrə 173 cinayət işi açılıb. Onların içərisindən 83 nəfərə qarşı ittihamın irəli sürüldüyü 43 cinayət işi məhkəməyə göndərilib.

Rəsmi məlumatlara əsasən, 2018-ci ildə Ermənistan ordusunda baş verən qanun pozuntuları və fövqəladə hadisələr səbəbindən dövlətə ümumilikdə 863 min ABŞ dolları ziyan dəyib. Bu isə 2017-ci ilin göstəricisindən 7,3 dəfə çoxdur.

### Korrupsiya tüğyan edir

Amma müstəqil rəsmi mənbələr cinayət və ölüm hallarının daha çox olması, korrupsiyanın miqdarının yüksək olması qənaətindədirlər. Məsələn, Ermənistan xüsusi istintaq xidməti sabiq müdafiə nazirinin müavini, "Yerkrapa" könüllü döyüşçülər təşkilatının rəhbəri general Manvel Qriqoryanın milyonlarla dollar mənimsədiyini üzə çıxarıb. Qeyd olunub ki, açılan cinayət işi çərçivəsində aparılan ilkin istintaq nəticəsində əldə olunan faktlar üzrə Qriqoryan külli miqdarda silah və döyüş sursatının qanunsuz saxlanılmasında, 1 milyard 228 milyon dram məbləğində vergidən yayınmada, 101 milyon 232 min dəyərində əmlakın və dövlətin 1 milyard 225 milyon dram vəsaitini qanunsuz şəkildə mənimsəməkdə, həmçinin şantaj yolu ilə 37 milyon 101 min dəyərində mülkiyyətə sahiblənməkdə ittiham olunur.

İstintaq nəticəsində sabiq müdafiə nazirinin müavininə qarşı ittihamların sayı artmaqla yanaşı, onun həyat yoldaşı Nazik Amiryana qarşı da ittiham irəli sürülüb. Ermənistan xüsusi istintaq xidmətindən bildirilib ki, Manvel Qriqoryan və xanımına qarşı başladılan cinayət işi baxılması və müvafiq cəza qərarının çıxarılması üçün məhkəməyə göndəriləcək. Manvel Qriqoryanın oğlu Arman Qriqoryan isə axtarışa verilib.

Bütün bunlar bir daha təsdiq edir ki, işğalçı ölkənin ordusunun çöküşü sürətlə davam edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Katibliyi YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Azərişıq" ASC-nin kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərenerji" ASC-nin prezidenti Baba Rzayev Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və komitənin kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ombudsman Elmira Süleymanova Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi-şöbə müdiri Əli Həsənova əzizi

**DİLAVƏR MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Azərbaycan" nəşriyyatının kollektivi "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadəyə bacısı

**PAKİZƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

"Maliyyə və uçot" jurnalının baş redaktoru, professor Qəzənfər Abbasov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova qardaşı

**ZAKİR MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8360
Sifariş 508
Qiyməti 40 qəpik